## Təfərrüatlar açıqlanmayıb

Hakan Fidan Maltada Ermənistan XİN başçısı ilə söhbətləşib



**Ermənistan xarici işlər naziri Ararat Mirzoyan Maltada Türkiyə xarici işlər naziri Hakan Fidanla söhbətləşib.**

Bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Mirzoyanın Maltada ATƏT XİN Şurasının iclası çərçivəsində ABŞ dövlət katibi Entoni Blinkenlə də qısa müddətli görüş keçirdiyi qeyd olunub. (apa)

XİN Mirzoyanın Fidan və Blinkenlə təmasları barədə təfərrüatları açıqlamayıb.



## Yol qəzası Bakıda sıxlığa səbəb oldu

**Paytaxtda avomobil sıxlığına səbəb olan növbəti yol-nəqliyyat hadisəsi ötən gün səhər saatlarında Nəsimi rayonu, Neftçilər prospektində baş verib.**

Bu barədə Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin məlumatında deyilir. Qəza səbəbindən 8 Noyabr prospekti və Yusif Səfərov küçəsi istiqamətində nəqliyyat vasitələrinin hərəkətində çətinlik yaranıb. Yol polisi əməkdaşları tərəfindən qısa müddət ərzində avtomobillərin sərbəst hərəkəti bərpa olunub.


❒ № 224 (6225) 2024-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 6 dekabr 2024-cü il (cümə)




# Giriş 2 manatdır

Mərkəzi Nəbatat Bağı açılıb

**Nəbatat Bağı təmirdən sonra istifadəyə verilib.**

Bakı Şəhər İcra Hakimiyyətindən verilən məlumat görə, giriş 6 yaşa qədər olanlara pulsuzdur. Altı yaşdan böyüklər üçün isə 2 manat təşkil edir.

*Qeyd edək ki, Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun qorunması məqsədilə 1934-cü ildə yaradılan Mərkəzi Nəbatat Bağı elmi-tədqiqat müəssisəsi olaraq fəaliyyət göstərib.*



## Azərbaycanın sülh məsələsində israrlıdır

Ceyhun Bayramov: "Ermənistan tərəfindən də siyasi iradə və məsuliyyət gözləyirik"

**"Nazirlər Şurasının bugünkü iclası olduqca mürəkkəb dövrə təsadüf edir. Beynəlxalq hüququn pozulması, beynəlxalq öhdəliklərin yanlış təfsiri və selektiv şəkildə tətbiqi inam və etimadın azalmasının, habelə çoxtərəfliliyin davam edən böhranının əsasında dayanır.**

Eyni zamanda, təhlükəsizlik və sabitlik heç bir sərhəd tanımayan və çoxtərəfli həllər tələb edən artan transmilli çağırışların mövcudluğuna görə təhdid altındadır". Bu barədə xarici işlər naziri Ceyhun Bayramovun ATƏT Nazirlər Şurasının 31-ci iclasındakı bəyanatında deyilir.

*Qeyd olunub ki, Avropada İslamofobiya və antisemitizm kimi etnik, dini dözümsüzlüyün və ayrı-seçkiliyin artması narahatlıq doğurur...*

(səh.3)

## Düşmənçilik səhifəsi bağlana bilər

Azərbaycan və Ermənistan müqavilə mətninin 17 maddəsindən 15-i üzrə razılığa gəliblər



**Azərbaycan və Ermənistan preambula, o cümlədən müqavilə mətninin 17-dən 15-i üzrə razılığa gəliblər**

Bunu Ermənistanı xarici işlər naziri Ararat Mirzoyan Maltada ATƏT XİN Şurasında çıxışında deyib. (apa)

"Sülh müqaviləsinin imzalanması məsələsində müəyyən irəliləyiş var. Mətndə preambula və 17 maddədən 15-i üzrə razılığa gəlib. İradə nümayəiş olunsa, sənəd Cənubi Qafqazda düşmənçilik səhifəsini bağlaya bilər", - Mirozyan qeyd edib.

# Azərbaycan əsla güzəştə getməyəcək

Prezidentin qətiyyətli bəyanları, verdiyi mesajlar aydın və qətidir



Qərbi azərbaycanlıların öz yurdlarına qayıtmaq hüququ təmin olunmayanadək Qarabağ ermənilərinin Azərbaycana qayıtmaq məsələsi gündəliyə gətirilməyəcək

**Prezident İlham Əliyev "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda I beynəlxalq konfransın iştirakçılarına müraciət ünvanlayıb.**

Dövlət başçısı vurğulayıb ki, Azərbaycan xalqı da ötən əsrin əvvəllərindən başlayaraq köçkünlük problemi ilə üzləşib:

"1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə daha dəhşətli xarakter almış köçürmələr nəticəsində yüz minlərlə azərbaycanlı dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınıb. Bu dəhşətli deportasiyalardan sonra Ermənistanda bir nəfər belə azərbaycanlı qalmayıb və Ermənistan monoetnik dövlətə çevrilib.

(səh.2)

# Şagird kitab yox, bıçaq gəzdirir

Məktəblər getdikcə "razborka" meydanına çevrilir



**Məktəblilər arasında növbəti insident Bakı şəhəri 329 saylı tam orta məktəbdə yaşanıb. Verilən xəbərə görə, tənəffüs vaxtı (saat 12:10 radələrində) X sinif şagirdi digər şagirdə kəsici alətlə xəsarət yetirib. Bu barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsi məlumat yayıb. Bildirilib ki, xəsarət alan şagirdə müvafiq tibbi yardım göstərilib, dərhal təcili-tibbi yardıma və şagirdlərin valideynlərinə məlumat verilib.**

(səh.5)



## Zurabişvilinin zamanı daralır

Kənar qüvvələrin Cənubi Qafqazdakı siyasi vəziyyəti dəyişmək cəhdləri alınmayacaq

**"Qonşu Gürcüstanda etiraz aksiyaları davam etdikcə ən çox gündəmə gələn şəxs də məhz bu ölkənin hazırkı Prezidenti Salome Zurabişvili olur. Sanki bütün dünyanın və regionun media-piar maşını Salomenin hərəkat lideri imicinin, inqilab rəhbəri obrazının formalaşdırılmasına xidmət edir".**

Bu barədə "Şərq"ə siyasi şərhçi, jurnalsit Bəybala Mirzəyev deyib. Ekspert bildirib ki, nə qədər cəhd göstərsələr də, bu obraz bu xanıma yapışmır.

(səh.3)

## Küçə süpürənlərin günü ağlamalıdır

Özəlləşəndə nə olacaq ki, şirkət sahibləri dövlətdən aldıqları maliyyəni öz ciblərinə qoyacaq, küçə təmizləyənlərə də yenə qəpik-quruş verəcək



**"Küçələrin təmizlənməsi sahəsi özəlləşdirilməlidir". Bu sözləri Milli Məclisin ötən plenar iclasında deputat Qüdrət Həsənquliyev deyib.**

Küçələrdə təmizlik işləri ilə məşğul olanların 450 manat maaş aldığını xatırladan deputat qeyd edib: "Onlar hər dəfə mənimlə görüşəndə maaşlarının qaldırılmasını xahiş edirlər. Vəziyyəti dəyişmək üçün bu sahənin təcili özəlləşdirilməsini təklif edirəm".

(səh.5)

## Murdarçılıqdır, xəstəlikdir

Evdə it saxlamaq adətindən xilas olmaq lazımdır



**Bakıda itlər öz sahibini parçalayaraq öldürüb.**

Hadisə srağagün Xətai rayonu NZS qəsəbəsində qeydə alınıb. Orada yaşayan 70 yaşlı Ə.Y-yə saxladığı Alabay cinsli itlər hücum edib. Səs-küyə qonşular gəlsələr də, itlərin qarşısında aciz qalıblar. Nəticədə itlər sahibini parçalayaraq öldürüb.

Hadisə yerinə polis əməkdaşları çağırılıb. Polisin müdaxiləsindən sonra itlər zərərsizləşdirilib.

(səh.7)



## Osmanlı dövlət arxivində maraqlı materiallar çoxdur

**Yavuz Akpınar:** "Türkiyədə Azərbaycanın zəngin mədəniyyətinin ən önəmli qaynaqları gün üzünə çıxarılmalıdır"

(səh.4)



## Qərbi Azərbaycan İcması Nikol Paşinyanı dialoqa çağırır

**Ülviyyə Zülfiqar:** "Biz öz ata-baba torpaqlarımıza mütləq şəkildə geri qayıtmalıyıq"

(səh.5)



# Azərbaycan əsla güzəştə getməyəcək

## Prezidentin qətiyyətli bəyanları, verdiyi mesajlar aydın və qətidir

**Prezident İlham Əliyev "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda I beynəlxalq konfransın iştirakçılarına müraciət ünvanlayıb. Dövlət başçısı vurğulayıb ki, Azərbaycan xalqı da ötən əsrin əvvəllərindən başlayaraq köçkünlük problemi ilə üzləşib:**

"1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə daha dəhşətli xarakter almış köçürmələr nəticəsində yüz minlərlə azərbaycanlı dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınıb. Bu dəhşətli deportasiyalardan sonra Ermənistanda bir nəfər belə azərbaycanlı qalmayıb və Ermənistan monoetnik dövlətə çevrilib. Ermənistan Azərbaycan xalqının əsrlər boyu öz dədə-baba torpaqlarında yaşaması və zəngin mədəni irs yaratması faktını hər vəchlə danmağa çalışır. Ermənistan Qərbi Azərbaycanda xalqımızın min illər ərzində yaratdığı mədəni irsi-tarixi abidələri, qəbiristanlıqları, məscidləri, tarixi yaşayış yerlərini dağıdıb, UNESKO tərəfindən ümumbəşəri mədəni dəyər kimi tanınan Azərbaycan aşıq sənətinə ciddi zərər vurub". Ölkə rəhbəri diqqət çəkib ki, bu tarixi-mədəni abidələr arasında yalnız Azərbaycan memarlığının və islam mədəniyyətinin parlaq nümunələrindən biri olan Göy Məscid salamat qalıb: "Lakin Ermənistan Göy Məscidin orijinal tarixi-memarlıq üslubunu qəsdən dəyişdirərək onu başqa ad altında təqdim etməyə çalışır. Regionun tarixini və mədəni mənzərəsini təhrif etmək, yenidən yazmaq məqsədi daşıyan belə destruktiv addımlar dözümsüzlük və irqçilikdən başqa bir şey deyil. Ermənistan bununla da kifayətlənməyib, Azərbaycana qarşı hərbi təcavüzə əl ataraq onun ərazilərini işğal edib, etnik təmizləmə törədib, şəhər və kəndləri dağıdıb, talan edib, torpaqlarımızı saysız-hesabsız minalarla çirkləndirib". Prezident vurğulayıb ki, Azərbaycan xalqı heç vaxt bu ədalətsizliklə barışmayıb, haqq səsini dünyaya çatdırmağa çalışıb: "2020-ci ildə Azərbaycanın şanlı qələbəsi ilə bitən Vətən müharibəsi Qarabağdan və Şərqi Zəngəzurdan qovulmuş soydaşlarımızın doğma yurdlarına qayıdışına imkan yaratdı. Azərbaycanın bu ədalətli savaşı beynəlxalq hüququn aliliyinin təntənəsi və qlobal miqyasda məcburi köçürülmə probleminin həllinə verilmiş böyük bir töhfədir. İşğaldan azad edilmiş ərazilərdə hazırda "Böyük Qayıdışa dair Dövlət Proqramı" uğurla icra edilir. Təəssüf ki, Ermənistan cəmiyyətində xalqımıza qarşı dərin kök salmış nifrət hissi, mifik "böyük Ermənistan" xülyası, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının hələ də qalması, bu ölkənin sürətlə silahlanması iki ölkə arasında dayanıqlı sülhün əldə olunmasını əngəlləyir".

Dövlət başçısı qeyd edib ki, Ermənistan Qərbi Azərbaycan İcmasının fəaliyyətini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışır: "Lakin İcmanın məqsədi Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir. Bu, sırf insan haqları məsələsidir. Ermənistanın İcmanın fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif etmək və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir. Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətini dialoqa çağırıb, lakin qarşı tərəf bundan imtina edib. Ermənistan İcma ilə danışıqlara başlamalı və Qərbi azərbaycanlıların fundamental hüquqlarının bərpa edilməsi istiqamətində praktik addımlar atmalıdır. Bundan əlavə, Ermənistan xalqımıza məxsus tarixi-mədəni irsin dağıdılması, təhrif edilməsi ilə bağlı vəziyyətin monitorinqi məqsədilə UNESKO-nun faktların araşdırılması missiyasının səfərinə icazə verməli və bu sahədə əməkdaşlıq etməlidir".

Ölkə başçısı bəyan edib ki, Qərbi Azərbaycan İcması üzvlərinin doğma torpaqlara qayıdış hüququnu təmin etmək məqsədilə beynəlxalq hüquqa uyğun dinc təşəbbüslərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi olduqca əhəmiyyətlidir: "Uğurla həyata keçirilən Qayıdış Konsepsiyasına əsaslanan bu təşəbbüslər Qərbi azərbaycanlıların sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına geri dönməsinə böyük töhfələr verəcək. Müxtəlif vaxtlarda dədə-baba torpaqlarından zorla köçürülmüş, hazırda Azərbaycanda və dünyanın bir sıra ölkələrində məskunlaşmış minlərlə Qərbi Azərbaycan əsilli şəxsin hüquqlarının müdafiəsinə həsr edilmiş konfransın işinə uğurlar arzulayıram. Əminəm ki, Azərbaycan xalqının zaman-zaman məruz qaldığı deportasiyalar barədə həqiqətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdıran bu beynəlxalq konfrans yaxın gələcəkdə qayıdış hüququ və dünyada köçkünlük problemi ilə bağlı fikir mübadiləsi aparılacaq önəmli beynəlxalq dialoq platformasına çevriləcək".

Qərbi azərbaycanlıların öz yurdlarına qayıtmaq hüququ təmin olunmayanadək Qarabağ ermənilərinin Azərbaycana qayıtmaq məsələsi gündəliyə gətirilməyəcək

**Prezidentin mesajlarını dəyərləndirən politoloq Abutalıb Səmədov "Şərq"ə deyib ki, ötən əsrdə Ermənistanda yaşayan azərbaycanlılar bir neçə dəfə zorakı köçürülməyə məruz qalıblar. Son köçürülmə xüsusi vəhşiliklə həyata keçirilib və çoxumuz bunun şahidiyik. Ekspert bildirib ki, həmin vəhşiliyə məruz qalan insanlar ilk gündən geri qayıtmaq, öz dədə-baba yurdlarında yaşamaq istədiklərini açıqca bəyan edirlər:** "Ermənilər Azərbaycan türklərinin izlərini silmək üçün hər cür vandallığa əl atıblar. Məzarlıqlarımızı dağıdıblar, abidələrimizi yox ediblər, adları dəyişiblər. Bu azmış kimi həyasızcasına bizi "etnik təmizləmə"də, "irqi ayrı-seçkilik"də ittiham etməyə başlayıblar. Hətta beynəlxalq məhkəmələrə də müraciətlər ediblər. Ermənistanın uydurma hay-küyünə tezliklə reaksiya verilsə də, rəsmi Bakının haqlı müraciətinə isə hələ də baxılmayıb. Ermənilər iddia edirlər ki, guya həmvətənlərimiz öz evlərini könüllü tərk ediblər. Yaxın dönəmdə baş vermiş hadisələrin şahidləri həyatdadır və deportasiyanı, törədilən vəhşilikləri, cinayətləri yaxşı xatırlayırlar. Ermənistan bu məsələnin üstünü ört-basdır etməyə, paralel olaraq Qarabağdan könüllü köçüb getmiş ermənilərin "geri qayıtmaq hüququ"ndan dəm vururlar. Azərbaycan dövləti Qarabağdan könüllü gedən ermənilərlə bağlı öz mövqeyini dəfələrlə açıqlayıb".

**A.Səmədov təəssüflə vurğulayıb ki, ədalətsiz qurumlar, beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələr Qarabağ ermənilərinin geri qayıtmaq hüququnu qabardır, önə çəkir, Qərbi azərbaycanlılarla bu məsələnin fərqli olduğunu iddia edirlər:** "Cənab Prezidentin qətiyyətli bəyanları, verdiyi mesajlar da göstərir ki, Azərbaycan bu məsələdə əsla güzəştə getməyəcək. Qərbi azərbaycanlıların öz yurdlarına qayıtmaq hüququ təmin olunmayanadək Qarabağ ermənilərinin Azərbaycana qayıtmaq məsələsi gündəliyə gətirilməyəcək. Bu məsələlər paralel şəkildə həll oluna bilər. Dövlət başçısının qəti mövqeyi, real addımlar, Qərbi Azərbaycan İcmasının fəallığı həmvətənlərimizin öz dədə-baba yurdlarına qayıtmasını təmin edəcək".

**İsmayıl Qocayev**

# Beynəlxalq şər maşını hərəkətdədir

## OCCPR dövlətimizə qarşı dezinformasiya hücumlarının qalasına çevrilib




**OCCPR (Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Araşdırmaları Layihəsi) ABŞ kəşfiyyatının ötürdüyü məlumatları "araşdırmaçı jurnalist" məhsulu kimi təqdim etməkdə davam edir. İndiyə qədər əsasən Avropa İttifaqı, Avropa ölkələri, xüsusilə ABŞ-dən aldığı vəsait hesabına formalaşdırılan bu qurum, bundan əvvəl COP dövründə də ABŞ Dövlət Departamentindən aldığı sifarişi yerinə yetirirdi.**

Eyni zamanda "Vaşinqton Post", "Qardian", CNN-in informasiya təminatçısı kimi çıxış edir. OCCPR-nin Cənubi Qafqaz siyasəti, həmçinin Azərbaycanı əsas hədəf obyektinə çevirməsi də açıq-aşkardır. Elə bunun sübutudur ki, daxili işlərə qarışmaq və erməni maraqlarının müdafiəçisi kimi çıxış edir. Eyni zamanda USAİD-in ermənipərəst rəhbəri Samanta Pauer də OCCPR-ni "tərəfdaş qurum" hesab edir. OCCPR-nin Azərbaycanla bağlı olan əsassız və doğru olmayan "araşdırmaları" pul müqabilində Xədicə İsmayılın imzası ilə yayılırdı.

**Politoloq Tural İsmayılov "Şərq"ə bildirib ki, OCCPR beynəlxalq şər maşınıdır**: "Sözügedən qurum bu günə qədər dövlətlər və xalqlar haqqında mənasız dezinformasiya hücumları həyata keçirən qarayaxma kampaniyası ilə məşğul olub. OCCPR-də təmsil olunanlar, onun müxtəlif ölkələrdə əməkdaşlıq etdiyi adamların özü də şəffaf, dürüst və təmiz qayda-qanunlarla işləyən adamlar deyil. Onlar həm də müxtəlif təxribatlar törədərək xalqlara, ölkələrə qarşı imperialist hücum alətinə çevriliblər. Heç vaxt obyektivliyi, reallığı və ədaləti müdafiə etməyiblər. Çünki həmişə bir məqsədləri və məkrli planları olub. Ümumiyyətlə, Azərbaycan beynəlxalq hüququnu təmin edib, öz ərazi bütövlüyünü tam əldə edəndən sonra OCCPR dövlətimizə qarşı dezinformasiya və "fake news" hücumlarının qalasına çevrilib. Təəssüfedici məqamdır ki, beynəlxalq hüquqdan, ədalətdən dəm vuran OCCPR-nin əməkdaşlıq etdiyi dövlət və qurumlar da onun vasitəsilə təxribatçı hücumlarına bir an belə ara vermirlər. Eyni zamanda OCCPR-nin maliyyə qaynaqlarının içərisində ABŞ Dövlət Departamentinin müxtəlif qrantları xüsusi rol oynayır. Buna görə də OCCPR hər hansı formada ABŞ milyarderlərinin ofşor hesablara oğurlayıb daşıdığı pulları araşdıra bilmir. Bu da açıq-aydın onun nümayişidir ki, OCCPR-nin məqsədini araşdırması nə jurnalistikadır, nə də nəzəri tədqiqatçılıqdır. OCCPR bəlli qurum və dairələrin əlində təzyiq vasitəsi və təsir rıçağından başqa bir şey deyil".

**Aynur Babazadə**

# Aranı qarışdıran radikallardır

## Erməni cəmiyyəti müharibə havasında deyil

**Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentdə KTMT ilə bağlı açıqlamaları ilə Sünik (Zəngəzur - red.) və Vayots Dzorun (Dərələyəz mahalı - red.) Azərbaycana təhvil veriləcəyini elan etmiş oldu. Bu iddia ilə erməni ekspert Edqar Qazaryan çıxış edib. O, Paşinyanın son açıqlamalarının erməni xalqına mesaj olduğunu bildirib.**

Qeyd edib ki, Baş nazir Ermənistanın KTMT-yə dönüş yolunun artıq olmadığını dedi. Yəni Azərbaycanla hərbi qarşıdurma olarsa, bu təşkilata müraciət etməyəcəyik. Çünki o, KTMT-nin buna mane olmayacağını deyib. 2024-cü ildə Rusiya hərbçiləri İrəvanın tələbi ilə Zəngəzurdan çıxarıldı. Həmçinin Azərbaycanla sərhəddə yerləşən qoşunların 17 bazası da ləğv olunub. Bunların bəziləri Kərki yaxınlığında yerləşirdi. Qazaryan xatırladıb ki, Ermənistan Rusiyaya Qafanda konsulluq açmağa icazə vermir. O, bunu guya sözügedən "ərazilərin təhvilinə indidən şərait yaratmaq" kimi təqdim etməyə çalışıb. E.Qazaryan dolayı yolla Ermənistanın təxribata hazırlaşdığını etiraf edib.



"Paşinyan da indiki sərhədlərin, yəni 29 000 kvadrat kilometr arasında olan ərazilərin dünya və Azərbaycan tərəfindən tanınması üçün var gücü ilə çalışır"

**Siyasi şərhçi Azər Həsrət "Şərq"ə bildirib ki, bu, növbəti xəstə erməni təfəkkürünün məhsuludur**: "Çünki Azərbaycanın Ermənistan torpaqlarını ələ keçirmək kimi bir iddiası və istəyi yoxdur. Digər tərəfdən isə Nikol Paşinyan indiki sərhədlərin, yəni 29 000 kvadrat kilometr arasında olan ərazilərin dünya və Azərbaycan tərəfindən tanınması üçün var gücü ilə çalışır. Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) fəaliyyətini dondurması isə rəsmi İrəvanın Qərbə yönəlməsindən qaynaqlanır. Ermənistan hazırda radikal şəkildə Qərbə istiqamət alır və Rusiyadan imtina edir. Ermənistanın içində olan Rusiya uzantıları isə bundan ciddi şəkildə narahatdırlar. Ona görə də bütün vasitələrdən istifadə edərək xalqı Nikol Paşinyana qarşı qoymağa səy göstərirlər. Amma onlar unudurlar ki, erməni xalqı əsassız iddiaların köləsi olmaqdan yorulub və gərginlik istəmir. Yəni müəyyən radikal kəsimlər erməni xalqı içində qarışıqlıq salmağa cəhd edir. Edqar Qazaryan da həmin şəxslərdəndir. Nə Ermənistan Azərbaycana torpaqlarını vermək fikrindədir, nə də Azərbaycanın belə istəyi var. Sadəcə olaraq Azərbaycan dəfələrlə bildirib ki, Ermənistan Qarabağda törətdiyi ziyanlara görə Bakıya təzminat ödəməlidir. Həmin təzminatı ödəyə bilmirsə, əvəzində Qərbi Zəngəzuru Azərbaycana qaytarsın".

**Şahanə Ziyad**



# 1,2 milyon manat ayrıldı

## Abşeronda qəsəbə yolları təmir ediləcək

**Abşeron rayonunun Hökməli, Məmmədli və Qobu qəsəbələrində yollar əsaslı təmir olunacaq.**

Bu barədə Trend dövlət satınalmalarının vahid internet portalından məlumat əldə edib.

Belə ki, təmir işləri Hökməli qəsəbəsinin S.Əskərova, Ə.Cəfərov, Həsən Əliyev, Y.Qarayev küçələrində, Məmmədli qəsəbəsinin M.Şirinov, E.Əliyev, M.Zeynalov, Z.Əliyeva, B.Vahabzadə küçələrində, Qobu qəsəbəsinin isə A.Qəribov, T.Sahibcanov, NHacıağayev küçələrində aparılacaq.

Məlumata görə, artıq bununla bağlı Abşeron Rayon İcra Hakimiyyəti (RİH) hazırlıqlara başlayıb.

RİH sözügedən işlərin icrasını "Proqress İnşaat EN" Məhdud Məsuliyyətli Cəmiyyətinə həvalə edib və onunla dəyəri 1.298.707,29 AZN (1 milyon 298 min 707 manat 29 qəpik) müqavilə bağlayıb.

# Avropa mediası da həqiqəti yazmağa başlayıb

## ABŞ-nin siyasətinə boyun əyməyən ölkələr birmənalı şəkildə OCCRP-nin hədəfinə tuş gəlirlər, onun hesabatlarında tənqid olunurlar

**"Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Araşdırmaları üzrə Jurnalist Araşdırmaları layihəsinin, yəni qısaca desək, OCCRP haqqında son günlər ortalığa çıxan məlumatlarda yenilik və əsas nüans ondan ibarətdir ki, bu barədə artıq Avropa mediasının özü yazmağa başlayıb".**

*Bu sözləri "Şərq"ə açıqlamasında Mətbuat Şurasının İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərli deyib. Ekspert bildirib ki, OCCRP-nin əməlləri, haradan maliyyələşməsi, hansı işlərlə məşğul olması barədə dəfələrlə araşdırma apararaq materiallar dərc edilib:* "Hər zaman birmənalı şəkildə bildirmişik ki, OCCRP ABŞ tərəfindən yaradılan, onun maraqlarına xidmət edən layihədir. Məkan baxımından harada təsis olunması, fiqurlar olaraq kim tərəfindən idarə olunmasının əhəmiyyəti yoxdur. Burada iki məsələ rol oynayır. Birincisi odur ki, OCCRP-nin maliyyə mənbəyi, yəni bir layihə olaraq donor institutu Amerika Birləşmiş Ştatları, həmin ölkənin donorlarıdır. USAİD-dən tutmuş SOROS-a qədər bir çox təşkilatın bu layihənin maliyyələşdirilməsində aktiv iştirakını görmüşük. Maliyyə mənbələri ABŞ-dəndir. Araşdırma mövzuları üçün verilən tezislər də birbaşa Amerika kəşfiyyatından gəlir. OCCRP-nin fəaliyyət istiqamətləri ABŞ-nin maraqlarının təmin olunmasına yönəlib. Hansı ölkələr Vaşinqtonun hədəfindədirsə, təşkilat da həmin ölkəyə fokuslanır".

**M.Ələsgərlinin sözlərinə görə, təbii resurslarla zəngin olan, amma ABŞ-nin siyasətinə boyun əyməyən ölkələr birmənalı şəkildə OCCRP-nin hədəfinə tuş gəlirlər, onun hesabatlarında tənqid olunurlar:** "Barələrində qondarma faktlar, dezinformasiyalar yayılmaqla həmin ölkələri gözdən salmağa çalışırlar. Həmin ölkələrin beynəlxalq rəydə imicini korlamaq, təzyiq göstərmək, ABŞ siyasətinə tabe etmək məqsədlərinə nail olana kimi bu cür fəaliyyət davam etdirilir.

Əməkdaşlıq edən jurnalistlərin də əksəriyyəti ABŞ Xüsusi Kəşfiyyat İdarəsinin təsiri altında olan şəxslərdirlər. Bir daha təkrar edirəm ki, sözügedən layihənin hansı niyyətlə yaradılması, nə işlərlə məşğul olması haqqında uzun illər araşdırmalar aparmışıq və bunu ictimailəşdirmişik. Amma indi əsas məqam ondan ibarətdir ki, artıq bir sıra Avropa ölkələri və Qərb mediası da bu təşkilat haqqında həqiqəti yazmağa başlayıb. Çünki təşkilat Avropanın özü üçün də ciddi təhdidə çevrilib".




"OCCRP ABŞ tərəfindən yaradılan, onun maraqlarına xidmət edən layihədir. Məkan baxımından harada təsis olunması, fiqurlar olaraq kim tərəfindən idarə olunmasının əhəmiyyəti yoxdur"

*Qeyd edək ki, "Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Araşdırmaları Layihəsi" (OCCPR) təşkilatının maliyyə mənbələri, əsl məqsəd və məramını ifşa edən sensasiyalı material dərc olunub.*

*Bundan başqa, Fransanın "Mediapart" onlayn qəzeti, Almaniyanın "NDR" ictimai telekanalı da OCCRP ilə bağlı araşdırma aparıb. Araşdırma OCCRP-nin əsasən ABŞ-dən maliyyələşdirildiyini təsdiq edib. Materialların xarakteri də onun arxasında ABŞ xüsusi xidmət orqanlarının durduğunu göstərir. Təşkilatın maliyyəçiləri arasında Soros Fondu, USAİD və ABŞ Milli Demokratiya Fondu da var. OCCRP-nin ABŞ hökuməti ilə əlaqələri o qədər sıxdır ki, hətta USAİD-in ermənipərəst rəhbəri Samanta Pauer onu "tərəfdaş qurum" adlandırır. Təşkilatın Qafqaz regionunda ən çox diqqət ayırdığı məkan da Azərbaycan və Azərbaycan təmsilçiliyi olan QHT-lər idi. Bu təşkilat indiyədək dəfələrlə Azərbaycan əleyhinə fəaliyyət sərgiləyib, ölkəmizi əsassız iddialarla ittiham edib. Xüsusən COP29 zamanı da qurum qərəzli yanaşmarından geri durmayıb. OCCRP-nin Azərbaycan da daxil olmaqla apardığı araşdırmaların sifarişçisi, icraçıları, onların qarşısına qoyulmuş vəzifələr indi daha aydındır.*

**İsmayıl Qocayev**




# Azərbaycanın sülh məsələsində israrlıdır

## Ceyhun Bayramov: “Ermənistan tərəfindən də siyasi iradə və məsuliyyət gözləyirik”

**“Nazirlər Şurasının bugünkü iclası olduqca mürəkkəb dövrə təsadüf edir. Beynəlxalq hüququn pozulması, beynəlxalq öhdəliklərin yanlış təfsiri və selektiv şəkildə tətbiqi inam və etimadın azalmasının, habelə çoxtərəfliliyin davam edən böhranının əsasında dayanır. Eyni zamanda, təhlükəsizlik və sabitlik heç bir sərhəd tanımayan və çoxtərəfli həllər tələb edən artan transmilli çağırışların mövcudluğuna görə təhdid altındadır”.**

Bu barədə xarici işlər naziri Ceyhun Bayramovun ATƏT Nazirlər Şurasının 31-ci iclasındakı bəyanatında deyilir.

Qeyd olunub ki, Avropada İslamofobiya və antisemitizm kimi etnik, dini dözümsüzlüyün və ayrı-seçkiliyin artması narahatlıq doğurur: ”ATƏT-ə üzv olan müvafiq dövlətlərin Təşkilat çərçivəsində aidiyyəti və beynəlxalq öhdəliklərinə əməl etmələri son dərəcə vacibdir.

Helsinki Yekun Aktından başlayaraq, ATƏT-in bütün sənədlərində təsbit olunmuş fundamental norma, prinsip və öhdəliklərə hörmət edilməsi və əməl olunması, xüsusilə dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət təhlükəsizlik və sülhün təməl daşı, eləcə də dialoq və əməkdaşlıq üçün əsas olmalıdır”.

Nazir bildirib ki, Azərbaycan ATƏT-in də daxil olduğu effektiv çoxtərəfliliyin güclü tərəfdarı olaraq qalır və büdcənin qısa zamanda qəbul edilməsi, habelə ATƏT-in funksionallığı ilə bağlı, baş katibin və icra strukturlarının rəhbərlərinin təyin edilməsi məsələsi ətrafında yaranmış çıxılmaz vəziyyətin həll olunması məsələlərinin həllində konstruktiv qarşılıqlı fəaliyyətə çağırır:

”Təşkilatın məhdud resursları ATƏT-in Maliyyə Qaydalarına tam uyğun olaraq, ən çox ehtiyacın duyulduğu istiqamətə, aktual və konsensusun mövcud olduğu proqram fəaliyyətlərinin maliyyələşdirilməsinə yönəldilməlidir.

ATƏT-in keçmiş Minsk prosesi ilə bağlı strukturları köhnədir və reallığa uyğun deyil. Bu strukturların kağız üzərində saxlanması Təşkilatın Maliyyə Qaydalarına ziddir. Müvafiq olaraq, bu vəziyyət büdcə proses çərçivəsində tənzimlənməlidir”.

Vurğulanıb ki, ATƏT-in zərərli ambisiyaların girovuna çevrilməsinə baxmayaraq, bölgədə Ermənistan-Azərbaycan kontekstində xeyli irəliləyişlər əldə edilib: ”Qanunsuz hərbi mövcudluğun aradan qaldırılması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpası nəticəsində artıq sülh faktiki olaraq bərqərar edilib. Bu, substantiv şəkildə dövlətlərarası münasibətlərin normallaşmasına yol açmaq üçün yeni imkanlar yaradıb.

Nazirlər Şurasının son iclasından bəri Azərbaycan və Ermənistan birbaşa ikitərəfli dialoq vasitəsilə sərhədlərinin bir hissəsinin delimitasiyasını və demarkasiyasını başa çatdırıblar. Müvafiq sərhəd komissiyalarının birgə fəaliyyəti haqqında bu yaxınlarda qüvvəyə minmiş Əsasnamə delimitasiya işinin növbəti mərhələlərinin həyata keçirilməsini təmin edəcək. Digər bir istiqamət üzrə isə ikitərəfli Saziş layihəsinin mətni üzərində fəaliyyətdə əhəmiyyətli irəliləyiş əldə olunub.

Bu nailiyyətlər birbaşa ikitərəfli danışıqların Azərbaycanın ardıcıl olaraq mübarizə apardığı normallaşma prosesində irəliləməyin ən yaxşı və yeganə əlverişli yolu olduğunu əyani şəkildə göstərir”.

**C. Bayramov onu da qeyd edib ki, əldə olunan tərəqqiyə baxmayaraq, normallaşma istiqamətində həll olunmamış problemlər də qalmaqdadır:** ”Onun yekunlaşdırılması Ermənistanın hələ də konstitusiyasında və digər qanunvericilik aktlarında təsbit edilmiş ərazi iddialarını aradan qaldırmaqla, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmət etməklə bağlı bəyan etdiyi öhdəliyini əməli surətdə həyata keçirməsindən asılıdır. Sülh və mehriban qonşuluq münasibətləri, Ermənistan konstitusiyasında Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tanınmasının şübhə altına alındığı və ikitərəfli sazişin icrasının Ermənistanın daxili hüquqi və ya siyasi ssenarilərindən asılı olacağı təqdirdə, davamlı və dönməz ola bilməz.

Azərbaycan və Ermənistanın qarşıdurma səhifəsini çevirmək və mehriban qonşuluq münasibətləri qurmaq üçün tarixi imkanının olduğu bu həlledici məqamda bütün səylər suverenliyə və ərazi bütövlüyünə qarşılıqlı hörmət əsasında münasibətlərin normallaşdırılması prosesinin başa çatmasına yönəldilməlidir.

Azərbaycanın bu məsələdə qətiyyəti dəyişməzdir və biz buna qarşılıq olaraq Ermənistan tərəfindən də siyasi iradə və məsuliyyət gözləyirik.

Eyni zamanda, bütövlükdə beynəlxalq ictimaiyyət, o cümlədən burada ATƏT çərçivəsində, hazırkı prosesə zərər verməmək, təxribatçı hərəkətlərdən və gərginliyin artmasından çəkinməkdən məsuldur”.

Nazir, Azərbaycanın ATƏT çərçivəsində Təşkilatın funksionallığı və effektivliyinin qarşısında duran mövcud çağırışlarının aradan qaldırılmasında konstruktiv əməkdaşlığa hazır olduğunu bir daha bəyan edib.

# Paşinyanın sülh açıqlamaları ictimai rəyə hesablanıb

## İrəvan hökumətinin başçısı üçün ölkə ictimaiyyətinin rəyi hava-su kimi lazımdır



“Paşinyanı dəstəkləyən Qərb ictimai rəy üçün milyonlar xərcləyir və erməni ictimai rəyində anti-Rusiya ovqatını körükləyir. Bu, ciddi siyasi mübarizədir, informasiya savaşıdır”

**”İrəvana Azərbaycanla heç bir müharibə qətiyyən lazım deyil”. Bunu Ermənistan Baş naziri Nikol Paşinyan deyib. Baş nazir bildirib ki, istənilən təcrübəli müşahidəçi başa düşür ki, daxili siyasi mövqelərimizi gücləndirmək üçün əksinə, regionda sabitlik lazımdır”.**

Paşinyan qeyd edib ki, regionda yeni eskalasiya üçün heç bir səbəb görmür. Baş nazir Bakı ilə sülh sazişi layihəsinin bəndlərinin 90 faizini razılaşdırdıqlarını da söyləyib. O, sülh müqaviləsinin imzalanması işlərinin sürətləndiriləcəyinə ümidini ifadə edib. Xatırladaq ki, Paşinyan bir neçə gün öncə müxalifətin Qarabağla bağlı ünvanladığı ittihamlara da cavab vermiş, ”Dağlıq Qarabağ respublikası” adlı ”dövlətin” olmadığını bir daha təkrarlamışdı. Növbəti dəfə siyasi qüvvələrə və ictimaiyyətə çağırış etmişdi ki, bu kimi məsələləri kənara qoyub, ölkənin maraqları naminə fəaliyyət göstərmək lazımdır.

**Paşinyanın açıqlamalarını təhlil edən politoloq Natiq Miri “Şərq”ə açıqlamasında deyib ki, Nikol Paşinyana qarşı daim irəli sürülən ittihamlardan biri Qarabağla, müharibə ilə bağlıdır və bunu baş nazirin xəyanəti ilə əlaqələndirirlər. Ekspert bənzər ittihamların hələ uzun müddət davam edəcəyini düşünür:** ”Nikol Paşinyanın məğlub olduğu müharibəni başladan ifadə məhz ”Qarabağ Ermənistandır” sözü idi. Revanşist qüvvələr Paşinyanın əleyhinə istifadə etmək üçün bu məsələni ara-sıra dövriyyəyə buraxırlar. Paşinyanın mütəmadi çıxışları, ittihamlara cavab verməsi ona qarşı ittihamları zamanla əritmək məqsədi güdür. Əks halda həm özünü təmizə çıxara bilməz, həm də ictimai rəyin lehinə dəyişə bilməz. O baxımdan Paşinyanın açıqlamaları həm də birbaşa ictimai rəyə hesablanıb. İrəvan hökumətinin başçısı üçün ölkə ictimaiyyətinin rəyi hava-su kimi lazımdır. Paşinyan anlayır ki, 2026-cı il parlament seçkilərində ictimai rəy əsas rol oynayacaq. Ona görə də Ermənistan ictimai rəy uğrunda ciddi mübarizə gedir”.

**Analitik vurğulayıb ki, bir tərəfdə revanşist müxalif qüvvələr və onların xidmət etdiyi Rusiya, digər yanda isə Nikol Paşinyan hökuməti və onları dəstəkləyən Qərb dünyası var:** ”Paşinyanı dəstəkləyən Qərb ictimai rəy üçün milyonlar xərcləyir və erməni ictimai rəyində anti-Rusiya ovqatını körükləyir. Bu, ciddi siyasi mübarizədir, informasiya savaşıdır. O ki qaldı sülh sazişi mətninin böyük faizinin razılaşdırılması məsələsinə, Paşinyan bənzər ifadələri dəfələrlə səsləndirib. Sülh sazişinə mane olan məqamlar və Bakının tələbləri ortadadır”.

**İsmayıl Qocayev**



# Nəticə nə oldu?

## Ermənistanda Rusiyadan sonra oxşar prosesi Hindistan, Avropa İttifaqı və ABŞ həyata keçirir

**Ermənistana silah yardımı intensivləşib. Fransa və Hindistanın ardınca indi də Yunanıstanın Ermənistana S-300 raket komplekslərini göndərəcəyi deyilir. Ermənistanda revanşizm əhvali-ruhiyyəsinin olması sirr deyil. Fransa, Hindistan, İran, Yunanıstan kimi ölkələrin Ermənistanı silahlandırması fonunda isə bu proses daha da dərinləşir.**



İşğalçı kimi tanınmış Ermənistanın yenidən silahlandırılması birbaşa olaraq işğalçılığın dəstəklənməsidir. Bu addım Cənubi Qafqazda sülhə və təhlükəsizliyə ciddi zərbədir. Görünür, Ermənistan özü də kütləvi silahlanmaya can atmaqla yeni müharibə ocağı yaratmağa çalışır. Həmçinin İrəvan bununla Azərbaycanla sülh müqaviləsi imzalamaqda maraqlı olmadığını sübut edir. Halbuki Azərbaycan müharibə istəmir, dayanıqlı və ədalətli sülh müqaviləsi imzalamaq üçün bütün resursları işə salıb. Belə olduğu halda Ermənistanın aşırı silahlanması, hərbi xərcləri durmadan artırması sülh istəyindən yox, pis niyyətlərdən xəbər verir. Əfsuslar ki, Paşinyan hakimiyyəti qərəzli Qərb və Avropa dairələrinin, Azərbaycana düşmənçilik siyasəti yürüdən ölkələrin diktəsi ilə hərəkət etməkdədir.

**Azərbaycan Demokrat Partiyasının sədr müavini, siyasi şərhçi Həsrət Rüstəmov deyib ki, regionda nəzarətsiz silahlanma təkcə Azərbaycanın deyil, bütün bölgə ölkələri üçün yaxşı bir şey vəd etmir. Ekspertin sözlərinə görə, ilk növbədə isə bu cür silahlandırılma məhz erməni xalqının gələcəkdə yeni müharibələrə cəlb olunması riski yaradır:** ”Ermənistanı uzun müddət Rusiya silahlandırdı. Nəticə nə oldu? Erməniləri qeyri-real hədəflərə həvəsləndirərək həm regionda uzunmüddətli qeyri-sabitliyə nail oldular, həm də çoxsaylı insan tələfatına səbəb oldular. Bununla imperiya ambisiyalarını təmin etməyə cəhd etdilər. Oxşar prosesi hazırda Hindistan, Avropa İttifaqı və ABŞ həyata keçirir. Erməni xalqı başa düşməlidir ki, onlara verilən silahlar xalqın müdafiəsi üçün verilmir, geosiyasi maraqların təmin olunması üçün verilir. Əgər bu silahlar işə düşərsə, İrəvanda yeni əsgər qəbiristanlıqları əmələ gələcək. Azərbaycanın və hərbi müttəfiqi olan Türkiyənin də bu vəziyyətə çox dözməsi qeyri-mümkündür. Yəqin ki, hansısa formada bu prosesə adekvat cavab addımları atılacaq. Ən doğru yol isə silahlanmanın durdurulması, Ermənistanın regionu yeni münaqişə poliqonuna çevirmək cəhdlərindən imtina etməsi olardı”.

**İsmayıl**

# Zurabişvilinin zamanı daralır

## Kənar qüvvələrin Cənubi Qafqazdakı siyasi vəziyyəti dəyişmək cəhdləri alınmayacaq

“Salome Zurabişvili Fransanın yetirməsidir. Onun Gürcüstanda gerçək mənada liderə, millət öndərinə çevrilmək potensialı yoxdur”



“Qarşıdakı prezident seçkilərindən sonra Gürcüstanda hakimiyyət daha da güclənəcək, lakin proses çox ağrılı keçəcək”

**“Qonşu Gürcüstanda etiraz aksiyaları davam etdikcə ən çox gündəmə gələn şəxs də məhz bu ölkənin hazırkı Prezidenti Salome Zurabişvili olur. Sanki bütün dünyanın və regionun media-piar maşını Salomenin hərəkat lideri imicinin, inqilab rəhbəri obrazının formalaşdırılmasına xidmət edir”.**

Bu barədə ”Şərq”ə siyasi şərhçi, jurnalsit Bəybala Mirzəyev deyib. Ekspert bildirib ki, nə qədər cəhd göstərsələr də, bu obraz bu xanıma yapışmır. Çünki Zurabişvilinin gerçək mənada liderə, millət öndərinə çevrilmək potensialı yoxdur: ”Söhbət bu siyasətçi xanımda təkcə liderlik xarizmasının olmamasından getmir. Hərçənd ki, bu da hər bir siyasətçi üçün ən vacib keyfiyyətlərdən biridir. Məsələ burasındadır ki, Salome Zurabişvili xalqın içindən çıxmayıb və heç vaxt xalqının dərdlərinə şərik olmayıb. O, Fransanın yetirməsidir. Üstəlik də vaxtilə məhz hazırda həbsdə olan sabiq Prezident Mixail Saakaşviliyə ”badalaq” gəlib. İndi Gürcüstanı idarə edən hakim ”Gürcü arzusu” Partiyası ilə iş birliyinə gedərək prezident seçilib. Bir sözlə, Zurabişvili indiki hakimiyyətin güclənməsində və Saakaşvilinin türmədə ”çürüdülmə”sində əsas rol oynayan şəxslərdən biridir. Lakin son illərdə Zurabişvili ilə ”Gürcü arzusu” arasında közərməkdə olan ixtilaflar bu gün onların yollarının ayrılmasına gətirib çıxarıb. Dekabrın 29-da səlahiyyət müddəti başa çatacaq S.Zurabişvilinin hətta qarşıda həbs olunmaq ehtimalı da var”.

**Analitikin qənaətincə, bu ehtimalı gözə alan S.Zurabişvili son etiraz aksiyalarının yaratdığı fürsətdən istifadə edərək ”məxməri inqilab” rəhbəri obrazına girməyi qərara alıb:** ”Qərbyönümlü gürcülər də bu qərarı qeyd-şərtsiz qəbul edərək onun liderliyi ilə razılaşıblar. Lakin gürcülərin bu seçimi uğursuz seçimdir. Çünki Salome Zurabişvili onları gürcü arzusuna - Avrointeqrasiyaya doğru uğurla apara biləcək şəxs deyil. ”Boz” siyasətçidən inqilab rəhbəri, hərəkat lideri, xalq qəhrəmanı olmaz. Zurabişvili çox güman ki, onu dəstəkləyən gürcüləri yolun yarısında qoyub, ölkədən qaçacaq. Lakin Zurabişvilinin ötən gün ”X” sosial şəbəkəsində yazdığı ”Zorakılıq və repressiyanın 6-cı günü... SSRİ qayıdıb!” ifadəsi hamını düşündürməlidir. Postsovet ölkələri keçmiş SSRİ-nin yenidən qayıtmasına yol verməməlidirlər”.

**”Gürcüstanda parlament seçkilərindən sonra siyasi proseslərin gedişi Qərbin bu ölkənin daxili işlərinə müdaxiləsinin açıq fazaya keçdiyini göstərir”. Bu sözləri isə ”Şərq”ə açıqlamasında Strateji Araşdırmalar Mərkəzinin sektor müdiri, politoloq İlyas Hüseynov deyib.**

Politoloq deyib ki, əvvəlki illərdə də Qərb Gürcüstana media, qeyri-hökumət təşkilatları vasitəsilə təsirlər, hibrid təhlükələr yaradırdı. İndi isə Qərb açıq şəkildə QHT-lər vasitəsilə ölkələrin daxili işlərinə qarışır, ölkə daxilində ictimai-siyasi vəziyyəti pozur və öz geopolitik məqsədlərini güdürlər: ”Azərbaycanda da Qərb QHT-lərinin uzun müddət ərzində ”fəaliyyəti”, eləcə də destruktiv məqsədləri mövcud idi. Lakin Azərbaycan dövlətinin vaxtında atdığı primitiv addımlar bütün təhlükələri neytrallaşdırdı”.

**İ.Hüseynovun sözlərinə görə, Qərb Gürcüstanda rəngli inqilab ssenarisi planlaşdırıb və həyata keçirməyə çalışır:** ”İnqilabın başlıca məqsədi mövcud hakimiyyəti devirmək və Gürcüstanda Qərbmeyilli, Qərbdən idarə olunan iqtidar komandası formalaşdırmaqdır. Qərbin Gürcüstanda həyata keçirmək istədiyi ssenari 2004-cü il postsovet məkanında, o cümlədən Ukrayna və Gürcüstanda həyata keçirilmiş rəngli inqilabların, habelə 2014-cü ildə Ukraynada baş vermiş inqilabın yenidən özünəməxsus formada təkrarını ehtiva edib. Gürcüstan hakimiyyətinin ”Xarici təsirin şəffaflığı haqqında” qanunu qəbul etməsi, seksual azlıqların fəaliyyətini məhdudlaşdıran normativ hüquqi aktların tətbiqi, habelə Gürcüstan hökumətinin ölkəni 2028-ci ilin sonuna qədər Avropa İttifaqına üzvlük məsələsini gündəmə gətirməməyə qərar verməsi Gürcüstan hakimiyyətinin bu təhlükəni gördüyünü və əks tədbirlər reallaşdırdığını nümayiş etdirir”.

Sektor müdiri hesab edir ki, qarşıdakı prezident seçkilərindən sonra Gürcüstanda hakimiyyət daha da  güclənəcək, lakin proses çox ağrılı keçəcək: ”Ehtimal edilir ki, Salome Zurabişvili prezidentlik səlahiyyətləri sona çatmamış hazırda həbsdə olan eks- prezident Mixail Saakaşvilini əfv edə bilər. Bu isə baş tutsa, Gürcüstanı daha böyük etiraz aksiyaları bürüyə bilər. Ümid edirm ki, kənar qüvvələrin Cənubi Qafqazdakı siyasi vəziyyəti dəyişmək cəhdləri alınmayacaq və region əvvəlki sabitliyinə geri qayıdacaq”.

**İsmayıl,
Şəymən**



Qəzetlərin xəbərlərini də gözdən qaçırmamalıyıq".

Alimin sözlərinə görə, Osmanlı dövlət arxivi dedikdə ağlımıza siyasi münasibətlər gəlir, halbuki həmin arxivlərdə başqa maraqlı məqamlar çoxdur: "Ömər Faiq Nemanzadə Türkiyədə "Daruş Şəfəq" məktəbində təhsil alıb. Müraciəti də arxivdədir. Məktəbi bitirdikdən sonra məmləkətinə geri dönmək istəyib, ancaq pulu olmadığı üçün maddi kömək istəyib. O məsələ də arxivlərdə qalır. "Ziya" qəzetinin yaradıcısı Səid Ünsizadənin iş və ev istəməsi ilə bağlı müraciətləri də arxivlərdə tapmaq mümkündür. Ondan sonra Türkiyəyə gəlmiş qardaşı Cəlal Ünsizadəyə iş tapılması, jurnal çıxartmağa dair müraciəti və s. məqamlarla bağlı informasiyalar da mövcuddur. Həmçinin "Molla Nəsrəddin" jurnalının Türkiyədə

# Osmanlı dövlət arxivində maraqlı materiallar çoxdur

## Yavuz Akpınar: "Türkiyədə Azərbaycanın zəngin mədəniyyətinin ən önəmli qaynaqları gün üzünə çıxarılmalıdır"

**"Azərbaycana gəlişimizin əsas səbəbi Xəzər Universitetinin təşkilatçılığı ilə "Türk Dünyasında Azərbaycan dili və ədəbiyyatı araşdırmaları" adlı I beynəlxalq elmi simpoziumda iştirak etməkdir".**

Bunu "Şərq"ə açıqlamasında türk ədəbiyyatının görkəmli simalarından olan, tanınmış tədqiqatçı alim, yazar, şair, Egey Universitetinin ədəbiyyat fakültəsinin professoru Yavuz Akpınar deyib.

Professor bildirib ki, Türkiyədə Azərbaycanın zəngin mədəniyyətinin ən önəmli qaynaqlarını gün üzünə çıxartmaq olduqca önəmlidir.

Alim təəssüflə qeyd edib ki, bu məsələ tarixçilərin nəzərindən yayınıb, kənarda qalıb: "Məsələn, Qarsdakı şifahi ədəbiyyatda aşıqlarımızın Müsəlman Xeyriyyə Cəmiyyəti tərəfindən göndərilən yardımları barədə çoxlu şeirlər var. Bunları yeni-yeni öyrənməyə başlayırıq. Halbuki ozamanki nəşrlərdə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətindən, messenat Hacı Zeynalabdin Tağıyev kimi şəxslərdən xeyli bəhs edilib. 1877-78-ci illərdə Osmanlı-Rusiya savaşından sonra mühacirətlər yaşanıb. İki yüz minə yaxın insan Azərbaycandan, Dağıstandan Anadoluya pənah gətirib. Onların Anadoluya daşıdığı Azərbaycan, Qafqaz mədəniyyəti var. Borçalılar, qarapapaqlar, təsəvvüf alimi Mir Həmzə Nigarinin yolundan gedənlər Amasyaya, Tokata, Muşa, Ağrı və Qarsa gəliblər. Anadolunun hər yerinə səpələnərək ədəbiyyat yaradıblar. Sonradan onların bir qismi Azərbaycana gələrək, Qarabağda yerləşib. Aşıq Şənlik Borçalıda və digər bölgələrdə yaxşı tanınırdı. Sovet imperiyası elə pərdələmişdi ki, bunlar bilinmirdi, unudulmağa doğru gedirdi".

Yavuz Akpınar əlavə edib ki, dövrün gündəlik nəşr olunan qəzetlərinin tədqiq olunması da zəruridir: "1880-ci illərdə "Ziya", "Ziyayi-Qafqaziyyə", sonrakı dönəmdə "Kəşkül"ün nəşri barədə Osmanlı qəzetlərində xəbərlər dərc olunub. Ayrıca məqalə şəklində olmasa da, gündəlik xəbərlərdə xeyli məlumatlar var. Hətta "Ziya", "Kəşkül" kimi qəzetlərdən, jurnalların materiallarından geniş istifadə olunub, onlara istinad edilib. Mirzə Fətəli Axundovun oğlu Rəşid Axundovun Tiflisdə bələdiyyə məclisi üzvlüyünə seçilməsi faktı Həsən Həsənovun Rəşid bəy Axundov haqqında əsərində yer almayıb. qadağan olunması barədə də xəbərlər yer alıb. Əlavə olaraq, 1924-cü ildə Azərbaycan hökuməti Türkiyə Cümhuriyyətindən 70 ədəd kitab istəyib və 25 dollar pul göndərib. Bunlar kifayət qədər maraqlı nüanslardır və Azərbaycan-Türkiyə əlaqələri araşdırıldığı zaman gözdən qaçan məqamlardır. Eyni zamanda 1870-ci ildən etibarən Güney azərbaycanlıların İstanbulda camaatı, təşkilatları olub. Onlar Türkiyədə farsca "Əxtər" qəzeti çıxarıblar. Qəzetin baş redaktoru Tahir Təbrizli Azərbaycan türküdür. Mirzə Əli Möcüz Şəbüstəri 16 il İstanbulda yaşayıb. Bunların bilinməsi çox önəmlidir".

Məlumat üçün bildirək ki, Yavuz Akpınar Azərbaycan ədəbiyyatına, mənəviyyatına, düşüncə tərzinə yaxından bələd olan, bu yöndə ən önəmli tədqiqatlar aparan elm adamlarındandır. Hələ sovet dövründə Azərbaycan ədəbiyyatı ilə bağlı araşdırmalar aparıb. Həmçinin "Əkinçi", "Şərqi-Rus", "Həyat" qəzetləri, "Füyuzat", "Molla Nəsrəddin", "Yeni Qafqaziyyə" jurnalları, o cümlədən İsmayıl Qaspıralı ilə bağlı önəmli araşdırmaları var.

**İsmayıl Qocayev**



# Əhali yerin altına axın edir

## 1 manatlıq taksilərin sıfıra salınmasından sonra əhalinin üz tutacağı bir yer qalıb

**Yerin üstü daraldıqca, imkanlar azaldıqca, yerin altı daha çox yüklənir. Bəli, söhbət metrodan gedir. Sirr deyil ki, hazırda ictimai nəqliyyatın əsas ağırlığı - bəlkə, 70-80 faizi metropolitenin üzərindədir. Bunu nəinki "ças-pik" vaxtlarında, günün istənilən saatında müşahidə etmək olur artıq. Metroda nisbətən, azacıq seyrəklik, bəlkə, 10:30-11:30 arası, bir də əl-ayaq yığılandan sonra - 22:00-dan 00:00-dək ola, ya olmayadı.**

O da baxır təqvimə, günə. Əgər bayram günləridirsə, seyrəklik gözləməyinə dəyməz. Elecə də, həftənin iş günlərində metroda seyrəkliyə ümid etmək səhrada su axtarmaq kimidir. Bu da onu göstərir ki, əhali metrodan daha çox istifadə edir, dediyimiz kimi, yerin üstündə ictimai nəqliyyat avtobus zolaqlarının çəkilməsinə rəğmən təxminən əvvəlki axsaq qrafiklə işlədiyinə görə. Yerüstü ictimai nəqliyyatın normal hala sala biləcəyinə inam nümayiş etdirən və bizləri də buna inandırmağa çalışan qurumlar bir gerçəyi israrla qəbul etmək istəmir: paytaxtın yol infrastrukturu yerüstü ictimai nəqliyyatın normal işləməsi üçün uyğun gəlmir. Geniş, bir neçə zolaqlı yollarımız çox azdır. Olanlar da idarə, şirkətlərin yol kənarında park edilən avtomobilləri, binaalt ofislər, marketlər, kafe-restoranlar, iaşə, xidmət obyektləri tərəfindən zəbt edilir. Baxın, COP29 günlərində Mehdi Hüseyn küçəsi ilə üzüaşağı, Şeyx Şamil küçəsi ilə İçərişəhər metrostansiyasına aparan yolun bir zolağı avtobuslara ayrılmışdı. Amma bu yol bineyi-qədimdən dar olduğundan avtobus zolağa daxil ola bilmirdi. Tıxac səbəbindən hərəkət edə bilməyən avtomobillərin irəli keçməsini gözləməli olurdular. İndi də belədir. Avtobus döngəni dönüb zolağa daxil ola bilmir. İşıqforun qırmızıdan yaşıla keçməsini gözləyir ki, avtomobillər hərəkətə gəlsin, yol açılsın, sonra avtobus da irəli hərəkət edə bilsin. Bu, yalnız bir nümunədir. Şəhərin avtoyollarında belə nümunələr "n" qədərdir. Yəni istəsək də, infrastruktur müasir tələblərə cavab vermədiyindən ictimai nəqliyyatı normal hala gətirmək çox çətindir. Hə, bir də taksi xidmətinin azalması amili də var. 1 manatlıq taksilərin sıfıra salınması da yerüstü ictimai nəqliyyatda sıxlığı bir qədər də artırıb. Bütün bunları gözə alan əhali yerin altına - metroya düşməyi daha məqbul hesab edir.

### 57 yaşlı metronun isə problemləri çoxdur, təmir-tikinti xərcləri artırılmalıdır

Beləliklə, yeraltı nəqliyyat yüklənir. Və təəssüf ki, bəzən ciddi problemlər də yaranır. Və bu, sərnişinlərin narahatlığına və hətta həyəcanına səbəb olur, metroya inamı da azaldır. Bu günlərdə metronun işində əməlli-başlı axsama yarandı. Axşam saatlarında "yaşıl xətt" üzrə "Əhmədli" - "Dərnəgül" marşrutu ilə hərəkət edən qatar "28 May" stansiyasında olarkən maşinist nasazlıq ehtimalı ilə qatara sərnişinsiz baxış keçirilməsini tələb edib. Bu səbəbdən "28 May" stansiyasında sərnişinlər düşürülüb və qatar nasazlıq ehtimalı ilə xətdən çıxarılıb. Daha sonra "28 May" və "Elmlər Akademiyası" stansiyalarında tənzimlənmə və təhlükəsizlik tələblərinin təmin olunması üçün girişlərdə nəzarət-buraxılış tədbirləri gücləndirilib. Qısamüddətli məhdudiyyətlər də tətbiq olunub. Əsas hədəf platforma səviyyəsinin ifrat dərəcədə yüklənməsinin qarşısının alınması olub. Nəticədə metrostansiyanın girişində, platformalarda hədsiz sıxlıq yaşanıb. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat katibi Bəxtiyar Məmmədov baş vermiş hadisə ilə bağlı açıqlamasında bildirib ki, Bakı metrosunda qatardakı texniki nasazlığa ələqədar komissiyanın xüsusi araşdırma iclası olacaq. O qeyd edib ki, mövcud vəziyyətin aidiyyəti şöbələrin rəhbərliyi ilə müvafiq araşdırılması aparılacaq. B.Məmmədov xatırladıb ki, metroda sıxlığın tənzimlənməsi bir saat davam edib: "Qatarın nasazlığı 18:20-də, yəni sərnişinlərin ən sıx vaxtında müşahidə olunub. "28 May" həmin vaxt Bakı metrosunun ən sıx stansiyalarından biri olur. Bu zaman sərnişinlərin düşürülməsi səkkiz dəqiqəyə yaxın vaxt aparıb".

**Nəqliyyat məsələləri üzrə mütəxəssis Rauf Ağamirzəyev "Şərq"ə açıqlamasında qeyd etdi ki, komissiyanın araşdırma apararaq yekun nəticəyə gəlməsini gözləmək lazımdır:**

- Elan olunmuş araşdırma iclasın nəticələrini gözləyək. Rəsmi bir mövqe var, anons verilib bununla bağlı. İlkin məlumatlara əsasən deyə bilərik ki, aparılan təmir işləri, vaqonların qapılarının bağlanmasına sərnişinlərin müdaxiləsi, ümumi rabitə-işarə vermədə qoyulmuş vaxt limitiylə bağlı məsələlər intervala birbaşa təsir edir. Ümumilikdə hesab edirəm ki, 57 yaşlı metronun təmir-tikinti xərcləri artırılmalıdır. Müəyyən dövrdən sonra həm tunellərin baxımı, təmir işləri, çatışmayan hissələrin tikintisi üçün təxirə salınmadan vəsait ayrılmalıdır. Bu çatışmayan hissələr - elementlər tikilərsə, sərnişin axınının parçalanması və ən minimum interval nail olunmasına gətirib çıxarar. COP29 zamanı metropolitenlə bağlı da müsbət xəbərlər oldu. Avropa İnvestisiya Bankı ilə memorandum imzalandı, yeni stansiyaların tikintisinə vəsait ayrılacağı elan edildi. Ən vacib məsələ - 3 xəttin müstəqil fəaliyyəti üçün hər birinin ayrıca deposunun olmasıdır. "Yaşıl xətt"in öz deposu yoxdur. Dərnəgül deposunun tikilməsinə və xətlərin ayrılmasına ehtiyac var. Bu, əlavə istiqamətlər üzrə yeni tikintiyə ehtiyac olduğunu göstərir. Bunlar bir-biriylə əlaqəli proseslərdir. Cari təmir, metronun ümumi inkişafı şəhərdaxili mobilliyə təsir edən amildir. Yerin altında nə qədər çox hərəkətlilik olarsa, bu, yerin üstündəki yükün önəmli hissəsini üzərinə götürmüş olacaq.

**Məlahət Rzayeva**

# Uşaqları təhsil müəssisələrinə avtobuslar daşıyacaq

## Bu model indiki vaxtda ən gözəl gerçəklikdir




Bu model ucqar kəndlərdə yaşayan uşaqların təhsil imkanlarını genişləndirəcək və onların məktəbə hazırlıq səviyyəsini artıracaq

**Azərbaycanda səyyar formada məktəbəqədər təhsil xidməti göstəriləcək. Bu barədə elm və təhsil naziri Emin Əmrullayev məlumat verib. O bildirib ki, bunun üçün təhsil avtobusları ayrılacaq:**

"Bu avtobuslar ucqar kəndlərə gedərək, orada məktəbəqədər təhsil xidməti göstərəcək. Beləliklə, avtobuslar bir gün ərzində iki kənddə xidmət göstərmək iqtidarında olur. Bu yolla da bir daha çox uşağı məktəbəqədər təhsilə cəlb etməyi düşünürük".

**ADPU-nun Təhsildə Təhlil və Kommunikasiyalar Mərkəzinin direktoru Kamran Əsədov da "Şərq"ə açıqlamasında deyib ki, ETN-in bu təşəbbüsü ənənəvi məktəbəqədər təhsil müəssisələrinin olmadığı yerlərdə mühüm sosial və təhsil ehtiyaclarını qarşılamağa yönəlib:** "Azərbaycanda məktəbəqədər təhsil sistemi uzun müddətdir ki, müəyyən infrastruktur problemləri ilə üzləşir. Xüsusilə, ucqar kəndlərdə məktəbəqədər təhsil müəssisələrinin olmaması və ya mövcud olanların çatışmazlığı uşaqların erkən yaşda təhsildən kənarda qalmasına səbəb olur. Statistik məlumatlara görə, ölkədə məktəbəqədər təhsil alan uşaqların ümumi sayının yalnız 30-40 faizi bu sistemdən faydalana bilir. Bu göstərici ucqar kəndlərdə daha da aşağıdır. Bu vəziyyət uşaqların məktəbə hazırlıq səviyyəsinə və ümumi təhsil nailiyyətlərinə mənfi təsir göstərir.

"Avtobus-bağça" modeli dünyada uğurla tətbiq olunan səyyar təhsil xidmətlərinin bir nümunəsidir. Məsələn, Türkiyə, Hindistan və Filippin kimi ölkələrdə mobil təhsil xidmətləri kənd yerlərində yaşayan uşaqlar üçün təhsil imkanlarını genişləndirmək məqsədilə istifadə olunur. Bu model, xüsusilə resursların məhdud olduğu ərazilərdə uşaqların erkən yaşda təhsilə qoşulmasını təmin edir. Bu yanaşma, təhsil resurslarının daha geniş kütlələrə çatdırılması üçün iqtisadi baxımdan da səmərəlidir".

"Avtobus-bağça" modelinin bir çox üstünlükləri olduğunu vurğulayan ekspert deyib ki, bu model ucqar kəndlərdə yaşayan uşaqların təhsil imkanlarını genişləndirir və onların məktəbə hazırlıq səviyyəsini artırır: "Təhsil mühiti olmayan ərazilərdə belə bir xidmətin göstərilməsi uşaqların intellektual və sosial inkişafına böyük töhfə verəcək. Həmçinin bu model valideynlərin övladlarını təhsil müəssisələrinə göndərmək üçün əlavə vaxt və resurs sərf etməsinin qarşısını alır. Bununla yanaşı, "avtobus-bağça" modeli təhsilə əlçatanlıq baxımından bərabərliyi təmin edir. Bütün uşaqların, yaşadıqları yerdən asılı olmayaraq, bərabər təhsil imkanlarına malik olması sosial ədalətin təmin olunması baxımından əhəmiyyətlidir. Təhsilin hər bir uşağın həyatına təsir etdiyi və onların gələcək uğurlarını müəyyən etdiyi nəzərə alınarsa, belə bir modelin tətbiqi uzunmüddətli perspektivdə cəmiyyətin rifahına müsbət təsir göstərəcək. Lakin bu modelin uğurlu olması üçün müəyyən çətinliklərin aradan qaldırılması tələb olunur. İlk növbədə, avtobuslar müasir tədris vasitələri və təhlükəsizlik avadanlıqları ilə təchiz edilməlidir. Müəllimlərin səyyar tədris xidmətləri üçün xüsusi təlim keçməsi və bu modelin xüsusiyyətlərinə uyğun hazırlanması zəruridir. Bundan əlavə, avtobusların texniki vəziyyətinin mütəmadi olaraq yoxlanılması və lazımi resurslarla təmin edilməsi vacibdir. Bu təşəbbüs, Azərbaycanın təhsil sisteminin müasir və innovativ həllərə açıq olduğunu göstərir. Məktəbəqədər təhsilin inkişafı, ölkənin insan kapitalının gücləndirilməsi və sosial-iqtisadi inkişafı baxımından strateji əhəmiyyət kəsb edir. "Avtobus-bağça" layihəsi, hər bir uşağın keyfiyyətli təhsil almasını təmin etmək və cəmiyyətin inkişafına töhfə vermək üçün atılan mühüm addımlardan biridir. Təhsilin əlçatanlığını artırmaqla yanaşı, bu model Azərbaycanın təhsil sahəsində dünya təcrübəsini uğurla tətbiq etməyə qadir olduğunu da sübut edir".

**Şəymən Bayramova**

# Makronun istefa ehtimalı çox azdır

## Ancaq yanlış siyasət Fransanı daha zəif mövqeyə sürükləyəcək



**Fransa Milli Assambleyası (Parlamentin Aşağı palatası) Mişel Barnier hökumətinə etimadsızlıq haqqında qətnamənin lehinə səs verib.**

Nazirlər Kabinetinə etimadsızlıq səsverməsini 331 deputat dəstəkləyib.

Qeyd edək ki, Mişel Barnye, 1962-ci ildən bəri Fransada etimadsızlıq səsverməsindən istefaya getməyə məcbur olan ilk Baş nazir olacaq.

**Politoloq Asif Nərimanlı "Şərq"ə bildirib ki, Fransada baş verənlərin, böhranın təməlində iqtisadi-siyasi vəziyyət dayanır:**

"Burada kütləvi etirazlardan başlayaraq artıq məsələ siyasi müstəviyə çıxıb. Hazırda Fransa hökumətinə etimadsızlığın kökü sırf Makronun atdığı yanlış siyasi adımlardan başlayıb. Bu prosesə daha öncə Avropa Parlamentində keçirilən seçkilərdən baxmaq lazımdır. Seçkilərdə Le Penin partiyası qalib gəldi və daha çox səs topladı. Bu da uzun müddətdən sonra Fransada bir ilk idi. Makron isə Avropa Parlamentindəki seçkilərdə uduzduqdan sonra daxili vəziyyəti lehinə dəyişdirmək qərarına gəldi. Ona görə də parlamentə növbədənkənar seçkilər təyin etdi. Amma bu seçkilərdə də heç də gözlədiyi nəticəni almadı. Əksinə, Makronun partiyası daha az səs topladı, digər partiyalar ön plana çıxdı. Belə olduğu halda hökumətin təyin edilməsi məsələsində problemlər yaşanmağa başlandı. Artıq müxalif parlamentdə çoxaldıqca, Makrona təzyiq etməyə başladı. Makron bu dövrdə yeni hökumət təşkil etdi. Hədəf kimi qoyuldu ki, bu hökumət iqtisadi problemləri qısa müddətdə həll etməlidir. Lakin 90 gün ərzində belə bir nəticə əldə edilmədi".

**Politoloqun fikrincə, Fransadakı siyasi böhranın yaranması da Makronun təyin etdiyi baş nazirin hökumətə böhranın həll yolu ilə bağlı təklifinə dayanır:**

"Yəni onlar bu durumun həlli ilə bağlı təkliflər paketi hazırladı. Bu, parlamentdə qəbul edilmədi. Səbəb isə əslində, həmin təkliflər paketinin yanlış olmasından da qaynaqlanmır. Bu, öncəki seçkilərdə Makronun əleyhdarlarının daha çox səs toplamasından da irəli gəlir. Digər tərəfdən, Makron bu vəziyyətdən istifadə etdi. İndiki dövrdə ya istefa verməlidir, ya da yeni baş nazir təyin etməlidir. Müxalifət daha çox Makronun istefasından yanadır. İstefa verilməsi ehtimalı isə çox azdır. Güman ki, yeni baş nazir təyin edəcək. Amma yeni baş nazirin təyin edilməsi yaranmış böhranın həllini sürətləndirməyəcək. Bunun da kökündə sırf Avropa Parlamentində Makronun partiyasının məğlubiyyətindən sonra Milli Assambleyanın keçirdiyi növbədənkənar seçkilərdə də uduzması dayanır. Səs çoxluğu olan partiya isə az səs toplayan partiyanın nümayəndəsi olan Prezidentə təzyiq göstərir. Bu isə siyasi böhranın davamlı olacağına gətirib çıxarır. Digər tərəfdən, Makronun yanlış siyasəti Fransanı yaxın müstəvidə zəif mövqeyə sürükləyir".

**Aynur Babazadə**

# Sülh onlara sərf etmir

## Avropa Birliyi Azərbaycan-Ermənistan münaqişəsində tərəfkeş rolundadır



**Maltada səfərdə olan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa Birliyinin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas arasında görüş baş tutub.**

Tərəflər Azərbaycanla Avropa Birliyi arasındakı siyasi dialoq, qarşılıqlı münasibətlər, enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq, habelə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması ətrafında fikir mübadiləsi aparıblar.

**”Cross Media” Təhlil Mərkəzinin analitiki, siyasi şərhçi Mübariz Göyüşlü ”Şərq”ə deyib ki, Avropa Birliyinin Azərbaycan-Ermənistan münasibətlərinin qaydaya salınması, sülhün imzalanması istiqamətində faydalı bir addım atacağına böyük şübhə ilə yanaşır:** ”Çünki Avropa Birliyi və onun nümayəndələri bu məsələdə tərəfkeş rolundadırlar. Hətta konkret olaraq bir sıra məqamlarda ermənipərəst mövqedən çıxış edirlər. Yəni onların davranışları belə bir təəssürat yaradır ki, sanki bölgədə sülh olmasını istəmirlər. Ümumiyyətlə, Avropa Birliyi gərginliyin davam etməsini, yeni bir müstəviyə keçməsini və bu fonda da öz maraqlarını həyata keçirməyi planlayır. Lakin Azərbaycan və Avropa Birliyi arasında əməkdaşlıq mümkündür. Əgər Avropa Birliyi də Azərbaycanın ona yanaşdığı kimi ədalətli yanaşma sərgiləyərsə və üzərinə düşənləri həyata keçirmək üçün cəhdlər göstərərsə, əməkdaşlıq gözləniləndir. Bu da hər iki tərəf üçün çox faydalı olar. Amma Avropa Birliyi fərqli davranışlar sərgiləyir. Siyasi məsələlərdə təzyiq üsulları seçirlər, qərəzli yanaşmalar, bəyanatlar qəbul etməyə cəhd göstərirlər. Bu isə münasibətlərdə gərginliyi artıran bir məqamdır. Digər tərəfdən, Avropa Birliyi sülhün imzalanmasını istəyərsə, təsir imkanları ola bilər. Lakin indiki zamanda onların davranışları prosesə mənfi təsir edir. Əgər Azərbaycan və Ermənistan sülhün imzalanmasını istəyirsə, vasitəçisiz bir araya gəlib danışıqlara nail olmalıdırlar”.

Aynur Babazadə

# Bakıya gətirilən taksilərlə bağlı yenilik

## POS-terminallar vasitəsilə 4178 əməliyyat icra olunub




**"Bakı Taksi Xidməti" MMC və "Azərpoçt" MMC arasında əməkdaşlığa başlanılıb.**

Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib. Əməkdaşlıq çərçivəsində "Bakı Taksi Xidməti" MMC tərəfindən ölkəyə gətirilən taksi şəbəkəsində "Azərpoçt" MMC-nin təqdim etdiyi POS-terminallar quraşdırılıb.

Beləliklə, "Azərpoçt" MMC yerli vətəndaşların, o cümlədən ölkəyə səfər edən xarici nümayəndə və turistlərin nəqliyyat ödənişlərinin nağdsız şəkildə həyata keçirilməsi üçün POS-terminalların taksilərdə quraşdırılmasını təmin edib.

Qısa zaman ərzində POS-terminallar vasitəsilə 4178 əməliyyat icra olunub, dövriyyə isə 146 min manat təşkil edib.



**Məktəblilər arasında növbəti insident Bakı şəhəri 329 saylı tam orta məktəbdə yaşanıb. Verilən xəbərə görə, tənəffüs vaxtı (saat 12:10 radələrində) X sinif şagirdi digər şagirdə kəsici alətlə xəsarət yetirib. Bu barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsi məlumat yayıb. Bildirilib ki, xəsarət alan şagirdə müvafiq tibbi yardım göstərilib, dərhal təcili-tibbi yardıma və şagirdlərin valideynlərinə məlumat verilib. ”Məsələ aidiyyəti qurumlar tərəfindən nəzarətə götürülüb, müvafiq araşdırmalara başlanılıb. Həmçinin hüquq-mühafizə orqanları tərəfindən müvafiq araşdırma aparılır. Araşdırma aparıldığını nəzərə alaraq, ictimaiyyətdən məsələyə daha həssas yanaşması, hadisə barədə rəsmi qurumların açıqlamalarına istinad edilməsi xahiş olunur”, - deyə məlumatda bildirilib.**

# Şagird kitab yox, bıçaq gəzdirir

## Məktəblər getdikcə “razborka” meydanına çevrilir

**Hadisə ilə bağlı Daxili İşlər Nazirliyinin məlumatında da bildirilir ki, paytaxtın Səbail rayonu ərazisində yerləşən orta məktəbin 10-cu sinif şagirdinin digər şagirdə kəsici alətlə xəsarət yetirməsi barədə polisə məlumat daxil olub. Polis əməkdaşları tərəfindən əməli törətməkdə şübhəli bilinən yeniyetmə saxlanılıb. Hazırda Səbail Rayon Polis İdarəsində araşdırma aparılır.**

*Təhsil məsələləri üzrə ekspert Elçin Süleymanov ”Şərq”ə açıqlamasında bildirdi ki, baş vermiş insident yalnız məktəbə aid məsələ deyil, bu, ümumən cəmiyyətlə əlaqədardır:*

- Şagirdlər məktəb daxilində də dalaşa bilər, məktəbdən kənarda da. Problemin nədən qaynaqlandığını yalnız məktəb daxilində axtarmağa başlasaq, heç nə əldə etməyəcəyik. Problemi məktəbə yönəltmək yox, problemin mənbəyinə enmək, səbəbləri tapmaq lazımdır. Belə olarsa, biz ”bu münaqişələr niyə ortaya çıxır” sualına cavab tapa bilərik. Elmi təhlillər onu göstərir ki, səbəblər əsasən, uşaqlar, yeniyetmələr arasında aqressiyanın artmasına səbəb kompüterə, sosial şəbəkələrə, internet resurslara və orada paylaşılan materiallara aludəlik, şiddəti təbliğ edən, şiddətə, zorakılığa yönəldən kompüter oyunları, uşaqların müəyyən qədər nəzarətsiz qalması, küçədə, həyatdə yaşıdlarıyla mübahisə etməsi, valideynlər arasında ailədaxili münaqişələr, bir-biriylə yola getməmələridir. Bunlar uşaqların psixologiyasına mənfi təsir göstərir. Sosial şəbəkələrdə kriminal məzmunlu materiallar, uşaqların zorakılığa, yaşıdlarına öz gücünü, ”nüfuzunu” göstərməyə meyillənməsinə səbəb olur. Şagirdlər nəzarətsiz buraxılmamalıdır. İstər məktəbdə, istərsə də məktəbdən sonra evdə, ailə daxilində. Bir şagirdin üzərində, cibində niyə kəsici alət olmalıdır, şagird kəsici aləti niyə özüylə məktəbə gətirir? Valideyn zaman-zaman uşağın məktəb çantasını da, cibini də yoxlamalıdır. Aşkar şəkildə olmasa da, gizli şəkildə. Baxmalıdır, nəzarət etməlidir, övladı özünü necə aparır. Kimlərlə dostluq edir və necə dostluq edir. Uşağın maraq dairəsi nədən ibarətdir? Və izah etməlidir ki, bu cür aqressiya yanlışdır, ziyanlıdır. Yeri gələndə tənqid etməlidir. Küçə jarqonu ilə danışmasını irad tutmalıdır ona. Məktəb psixoloqları da iş aparmalıdır şagirdlərlə. Məktəb psixoloqlarını son zamanlar çox hallandırırıq. Hesab edirəm ki, yaxşı pedaqoq həm də təcrübəli psixoloqdur. Sinifdə müəllim həm pedaqoq kimi, həm də psixoloq kimi davranırsa, o sinfin şagirdlərinin yanlış istiqamətlərə yönəlməsi ehtimalı aşağıdır. Dünənədək (30-40 il əvvəl) məktəblərdə ayrıca psixoloq ştatı yox idi, müəllimlər şagirdlərlə yeri gələndə tərbiyəvi söhbət aparırdılar. Doğrudur, müəllim nüfuzu çox şeyi həll edir. Amma biz indi deyə bilmərik ki, nüfuzlu müəllimlər yoxdur, yaxud azdır, şagirdlərlə ünsiyyət qura bilmirlər və sair. Yüksək ixtisaslı, bacarıqlı, uşaqlarla lazımi şəkildə davrana bilən pedaqoqlarımız çoxdur. Lakin bunu da nəzərə almalıyıq ki, uşaqlar bir çox istiqamətlərdən təhlükələrlə üzüzədirlər. Dediyim kimi, müasir texnologiyalar, internet resursları, smartfonlarda müxtəlif platformalara sərbəst giriş imkanı uşaqlarımız üçün böyük təhlükə daşıyır. Ona görə də probleme birtərəfli yanaşma müsbət nəticə əldə etməyimizə mane olar. Aqressiyanın mənbəyinə enmək, kökünə baxmaq lazımdır ki, haradan, nədən qaynaqlanır. Hazırda əksər orta məktəblərdə müşahidə kameraları quraşdırılıb. Məktəb dəhlizlərində, məktəbin həyətində qarşıdurma halı yaranıbsa, nəzarətçilər tərəfindən dərhal müdaxilə edilməlidir. Bu məsələdə ”Məktəbin dostu” layihəsinin müsbət təsirini qeyd etməliyik. Bu layihə üzrə çalışanlar məktəb daxilində sakitliyin təmin edilməsinə çox kömək edir. Aqressiya elementləri varsa, önlənməli, qarşısı alınmalıdır. Şagirdlərin aqressiv davranışı psixoloqlar tərəfindən araşdırılmalı, uşaqlar doğru yola yönəldilməlidir. Məktəbin üzərinə düşən vəzifə hər bir şagird haqqında müəyyən məlumatlara malik olmaq, ailələrlə əməkdaşlıq etməkdir.

“Problemin nədən qaynaqlandığını yalnız məktəb daxilində axtarmağa başlasaq, heç nə əldə etməyəcəyik”

**P.S.**Təəssüf ki, məktəbin ailələrlə ”əməkdaşlığı” fond pulu toplananda, bayram günləri, sinif müəllimlərinin ad günləri və sair bu qəbildən olan tədbirlər, həmçinin müəyyən qədər də imtahanlar vaxtı ”sıxlaşır”. Belə olduğu müddətcə məktəbli oğlanların ciblərində bıçaq gəzdirməsinə də, qızlarınsa bir-birinin saçını yolmasına heyrətlənməmək lazımdır.

Məlahət Rzayeva

# İki "mehriban düşmən"in telefon danışıqları

## Gerasimov-Braun danışıqlarına daha bir “gizli qat” əlavə edilir





**Rusiya və ABŞ baş qərargah rəislərinin telefon danışığına dair Rusiyanın Baş Qərargah rəisi Valeri Gerasimovla ABŞ-nin Birləşmiş Qərargah Rəisləri Komitəsinin rəhbəri Çarlz Braun arasında telefon danışığı olub.**

Rəsmi məlumata əsasən, generallar Rusiya Hərbi Dəniz Qüvvələri ilə Hərbi Kosmik Qüvvələrinin Aralıq dənizindəki təlimlərini müzakirə ediblər, lakin açıqlanmayan hissələrdə başqa məqamlar da yer alır. Bu barədə ”Şərq”ə danışan siyasi təhlilçi Aqşin Kərimov deyib ki, ABŞ ilə Rusiyanın ali hərbi qurumlar vasitəsilə diplomatiyası tərəflər arasında konfliktlərə son qoymağa yönəlmiş xüsusi təklifləri özündə ehtiva edə bilər: ”Gerasimovla Braunun müzakirələri Rusiya ilə ABŞ-nin Yaxın Şərqdən tutmuş Ukrayna poliqonuna qədər uzanan münaqişələrin potensial olaraq məhdudlaşdırılmasını əks etdirir. Bu təkliflərə Donald Trampın növbəti prezidentliyi dövründə ABŞ-Rusiya əlaqələrində əsas fiqurların, o cümlədən Trampla Vladimir Putinin görüş planları ilə əlaqədar ümumi planlar da daxildir. Zəngin Rusiya tərəfindən edildiyi məlumatından yola çıxaraq demək mümkündür ki, Gerasimov Trampın administrasiyası dövründə ABŞ-nin hərbi planları barədə nəbz yoxlayıb. Ukrayna hakimiyyətindən 2022-ci ilin 23 fevral sərhədlərinə qayıdış fonunda Rusiya ilə danışıqların mümkünlüyünə işarələrin işığında Gerasimov-Braun danışıqlarına daha bir ”gizli qat” əlavə edilir”.

**Siyasi təhlilçinin sözlərinə görə, Gerasimovla Braunun telefon danışıqları həm də Rusiyanın Suriyadakı hadisələr fonunda Aralıq dənizində mövqelərini əldən verməmək üçün bütün vasitələrdən istifadə edəcəyinə dair işartlardır:** ”Danışıqlar ABŞ-nin da mövcud və onun da fövqünə çıxa biləcək potensial maraqlarının çərçivələrini işıqlandırır. Bu, Rusiya ilə ABŞ-nin həm potensial qarşılıqlı güzəştlərinin ölçülərini, həm də mübarizəyə davam edəcəyinin hədlərini müəyyənləşdirir. Rusiyanın Ukraynaya qarşı müharibədə kompleks çağırışları intensiv olaraq yeni növ raketlərin sınaqdan çıxarılması ehtimalını yüksəldir. Yəqin ki, Gerasimov bu barədə də həmkarını məlumatlandırıb və ümumiyyətlə, ABŞ ilə Rusiyanın dərin eskalasiyaya girməməsi üçün kəşfiyyat məlumatlarını mübadilə proqramının hazırlanması təklif edilib”.

Şəymən



## Qərbi Azərbaycan İcması Nikol Paşinyanı dialoqa çağırır

Ülviyyə Zülfiqar: "Biz öz ata-baba torpaqlarımıza mütləq şəkildə geri qayıtmalıyıq"

**“Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətini dialoqa çağırıb, lakin qarşı tərəf bundan imtina edib”.**

Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransın iştirakçılarına müraciətində yer alıb. Dövlət başçısı bildirib ki, Ermənistan İcma ilə danışıqlara başlamalı və Qərbi azərbaycanlıların fundamental hüquqlarının bərpa edilməsi istiqamətində praktik addımlar atmalıdır. Prezident İlham Əliyev vurğulayıb ki, Ermənistan xalqımıza məxsus tarixi-mədəni irsin dağıdılması, təhrif edilməsi ilə bağlı vəziyyətin monitorinqi məqsədilə UNESCO-nun faktların araşdırılması missiyasının səfərinə icazə verməli və bu sahədə əməkdaşlıq etməlidir.

**Qərbi Azərbaycan İcmasının İctimaiyyətlə əlaqələr və Qərbi Azərbaycan Televiziyası şöbəsinin müdiri, mətbuat katibi Ülviyyə Zülfiqar “Şərq”ə deyib ki, Qərbi Azərbaycan İcması olaraq fəaliyyətimizin ilk illərində Ermənistanın Baş naziri Nikol Paşinyana müraciət ünvanlamışıq:** “Nikol Paşinyana bildirilmişdi ki, biz sülh yolu ilə təhlükəsiz şəkildə öz torpaqlarımıza qayıtmaq istəyirik. Ermənistan Baş naziri isə müraciətə cavab vermədi. Hətta əksinə olaraq mətbuatda Azərbaycanın haqlı istəyini ərazi iddiası kimi qələmə verməyə cəhd göstərdilər. 300000-dən çox Qərbi azərbaycanlının beynəlxalq hüququn norma və prinsiplərinə əsasən geri qayıdış haqqı var və bu, həyata keçirilməlidir. Ermənistan tərəfinin üzərinə bununla bağlı konkret məsuliyyət düşür. Qərbi Azərbaycan İcması hər zaman olduğu kimi Ermənistan tərəfini və Baş nazir Nikol Paşinyanı dialoqa çağırır. Biz öz ata-baba torpaqlarımıza mütləq şəkildə geri qayıtmalıyıq. Dağıdılan və talan edilən Qərbi Azərbaycan mədəni irsi və insanların yaşayış məskənləri bərpa olunmalıdır. Çünki bir xalqın mədəni irsinin dağıdılması və insan hüquqlarının pozulması yolverilməzdir. Qərbi Azərbaycan İcması olaraq bütün fəaliyyətimizi soydaşlarımızın geri qayıdış hüququnun bərpa olunması istiqamətində təşkil etmişik”.

Şahanə Ziyad

# Küçə süpürənlərin günü ağlamalıdır

## Özəlləşəndə nə olacaq ki, şirkət sahibləri dövlətdən aldıqları maliyyəni öz ciblərinə qoyacaq, küçə təmizləyənlərə də yenə qəpik-quruş verəcək

**“Küçələrin təmizlənməsi sahəsi özəlləşdirilməlidir”. Bu sözləri Milli Məclisin ötən plenar iclasında deputat Qüdrət Həsənquliyev deyib.**

Küçələrdə təmizlik işləri ilə məşğul olanların 450 manat maaş aldığını xatırladan deputat qeyd edib: “Onlar hər dəfə mənimlə görüşəndə maaşlarının qaldırılmasını xahiş edirlər. Vəziyyəti dəyişmək üçün bu sahənin təcili özəlləşdirilməsini təklif edirəm”.

**Sağlam Cəmiyyət Hərəkatının sədr Elçin Bayramlı isə “Şərq”ə açıqlamasında deputatın təklifinin ağlabatan olmadığını deyib:** “Mənasız təklifdir. Kommunal təsərrüfat işçilərinin maaşının az, iş rejimlərinin də ağır olması məlum məsələdir. İllərdir bu sahədə çalışan insanların maaşlarının artırılması ilə bağlı müzakirələr aparılır.

Bu sahədəki mövcud problemlərdən çıxış yolunu deyə bilməyib, çarəni bu sahənin özəlləşdirilməsində görmək, dövlətin boynundan atmaq absurd yanaşmadır. Guya küçələrin təmizlənməsi sahəsi özəlləşdirilsə nə dəyişəcək ki!? Onların maaşını kim artıracaq? Birbaşa və ya dolayı yolla olmasının heç bir fərqi yoxdur, istənilən halda bu sahəyə ayrılan maliyyə dövlətin büdcəsindən çıxacaq. Bu cibdən alıb o cibə qoymaqdansa, dövlət birbaşa kommunal təsərrüfat işçilərinin maaşını ən azı 3 dəfə artırmalıdır. Millət vəkilinin bu problemi parlamentdə işıqlandırması, küçələrdə təmizlik işləri ilə məşğul olanların maaşının az olmasını qabartması təqdirəlayiq haldır, lakin bu cür problemi qaldırıb arxasından belə təkliflər vermək doğru deyil.

Əgər bu sahə özəlləşəndə kommunal təsərrüfat sahəsinə büdcədən əlavə vəsaitlər ayrılacaqsa, həmin vəsaiti elə indi artırıb işçilərin maaşına əlavə etsinlər. Özəlləşəndə nə olacaq ki, şirkət sahibləri dövlətdən aldıqları maliyyəni öz ciblərinə qoyacaq, küçə təmizləyənlərə də yenə qəpik-quruş verəcək.



“Bizdə də ən optimal variant budur. İcra hakimiyyətləri tamamilə ləğv edilməli, yerli özünüidarəetmə sisteminə keçilməlidir”

Bəzi ölkələrdə bu işlə bələdiyyələr məşğul olur və onlar da öz işçilərinə normal əməkhaqqı verirlər. Bizdə də ən optimal variant budur. İcra hakimiyyətləri tamamilə ləğv edilməli, yerli özünüidarəetmə sisteminə keçilməlidir. Bizdə isə ”nə yardan doyur, nə də əldən qoyurlar””.

**E.Bayramlının sözlərinə görə, millət vəkilinin bu təklifi kommunal işçilərin maaşının artırılmasından daha çox dövlətin xərclərinin azaldılmasına yönəlib:** “Vergiləri, cərimələri artırıb, büdcədən ayrılan xərcləri azaltmaq prinsipi düzgün yanaşma deyil. Əgər bu sahəyə vəsait ayırmaq dövlətin üzərində ağır yükdürsə, o zaman çəkilsinlər kənara və idarəetməni bələdiyyələrə versinlər. Bələdiyyələrin də səlahiyyətlərini artırsınlar ki, onlar camaatdan yığdıqları ödəmələr hesabına kommunal təsərrüfat işçilərinin maaşını ödəsin. Problemi fundamental şəkildə qaldırıb çıxış yolları axtarmaq əvəzinə gülünc-gülünc təkliflər irəli sürüb gündəm yaradırlar. Vallah, belə olmaz! Ciddi işlər görmək, ağıllı təkliflər irəli sürmək lazımdır. Parlament oyun meydançası deyil!”.

Şəymən

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

# Qarabağ və Şərqi Zəngəzurda yeni həyat başlayır

## Artıq yurdlarımıza insanlar, təhsil qayıdır, orada yenidən uşaqların səsi eşidiləcək



**Noyabrın 29-da Bakı şəhərinin Qaradağ rayonundan yola salınan növbəti köç karvanı Cəbrayıl şəhərinə çatıb. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən verilən xəbərə görə, bu mərhələdə şəhərə köçürülən 200 nəfərdən ibarət 40 ailəyə mənzillərin açarları təqdim edilib.**

Mərasimdə Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Dövlət Komitəsinin rəsmiləri iştirak ediblər. Cəbrayıla daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş binalarda mənzillər verilib. Cəbrayıla növbəti köç dekabrın 2-də baş tutub. Köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Komitənin məlumatına görə, bu mərhələdə şəhərə köçürülən 129 nəfərdən ibarət 34 ailəyə mənzillərin açarları təqdim edilib. Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən ilkin mərhələdə Cəbrayıl şəhərinə 40 ailə - 200 nəfər köçürülüb. Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər. Doğma yurduna qayıdan Əhməd Ələkbərov deyib ki, Cəbrayıldan çıxanda onun 32 yaşı var idi, indi isə 64 yaşı var: ”Vətənimə gedirəm, xoşbəxtəm”. Səkinə Mustafayeva da bildirib ki, yurdlarına getdikləri üçün çox sevinclidirlər: ”Bundan böyük sevinc olarmı? Bizim üçün ən əziz gündür”. Kifayət Ələkbərova cəbrayıllı olduğu üçün fəxr etdiyini söyləyib: ”Allahdan arzum odur ki, yurd həsrəti çəkənlərin hamısına qayıdış nəsib olsun”. Mələk Əliyeva Cəbrayıldan çıxarkən 8 yaşında olduğunu deyib: ”Uşaqlığımızı yaşaya bilməmişik. İnşallah, övladlarımız Cəbrayılda böyüyüb boya-başa çatar. Allah şəhidlərimizə rəhmət etsin”.

**Milli Məclisin deputatı Hikmət Məmmədov parlamentin plenar iclasında büdcə zərfinin ikinci oxunuşda müzakirəsi zamanı deyib ki, 2025-ci ildə Böyük Qayıdışa 4 milyard manatdan çox vəsaitin nəzərdə tutulması gələcəyə yatırımdır. Onun sözlərinə görə, bu prosesə artıq 18 milyard manat xərclənib**: ”Bu investisiyaları nəzərə alsaq, 2026-cı ildən sonrakı yeni mərhələnin Azərbaycan iqtisadiyyatının sürətlə böyüdüyü dönəm olacağı görünür”. Məlumat üçün əlavə edək ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı və Prezidentin işğaldan azad edilmiş ərazilərdəki xüsusi nümayəndəliklərinin dəstəyi ilə Böyük Qayıdışla bağlı yeni video-fləşmob hazırlanıb. Flaşmobda bu il ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayaraq tələbə adı qazanmış məcburi köçkün gənclərin bir qrupu iştirak edib. Onlar mənsub olduğu şəhər və rayonunun xəritəsinin maketi ilə ”Biz öz tariximizə qayıdırıq!” adlı aksiyaya qoşulublar. Vide-fləşmob ”Qarabağ Azərbaycandır” şüarı ilə yekunlaşıb.

**Millət vəkili, parlamentdə Cəbrayıl-Qubadlı seçki dairəsini təmsil edən Ceyhun Məmmədov deyib ki, torpaqlarımız işğaldan azad edildikdən qısa zaman sonra insanlarımızın həmin ərazilərə qayıdışının şahidiyik. Deputat vurğulayıb ki, tam əminliklə deyə bilərik ki, ölkə rəhbərliyinin bilavasitə diqqət və qayğısı ilə Böyük Qayıdış prosesi ən sürətli şəkildə icra olunmaqdadır:** ”İnsanların doğma yurdlarına qayıdışını görmək, bu hissləri yaşamaq böyük qürurdur, sevincdir. 30 ilə yaxın müddətdə daha çox torpaqlarımızın işğalından, məruz qaldığımız vəhşilikdən danışsaq da, 2020-ci ildən, 44 günlük müharibədən sonra işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən abadlıq, quruculuq işlərindən danışırıq. Cəbrayıl düşməndən ilk azad olunan rayonlarımızdan biridir. Bərpa-quruculuq işlərinin ən azı 5 il çəkəcəyini düşünürdük. Ancaq Cəbrayılda gözəl infrastruktur yaradılıb, binalar inşa olunub, məktəb tikilib, avtomobil və dəmiryolu bərpa edilib. Ermənistan işğal dövründə Cəbrayılda daşı daş üstə qoymayıb. İndi ermənilər özləri də danışır ki, Azərbaycan qısa müddətdə ən yüksək səviyyədə qurdu və rayonlarımızı bərpa etdi. Artıq Cəbrayıla həyat qayıdır, təhsil qayıdır, orada yenidən uşaqların səsi gələcək. İnsanlarla ünsiyyətdə olarkən onların sevincinin şahidi oluram. Hazırda bütün Qarabağ və Şərqi Zəngəzur tikilir, qurulur. Ədalətin bərpası, Azərbaycan həqiqətlərinin təbliği və bu ərazilərin bizə məxsusluğunu göstərmək baxımından Qayıdış prosesinin xüsusi əhəmiyyəti var”.

Parlament üzvü vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdə iki əsas Sənaye Parkı yaradılıb. Onlardan biri Ağdamda, digəri Cəbrayıldadır: ”Yeni-yeni fəaliyyətə başlamış həmin iqtisadi zonada işlər sürətlə gedir. Araz Vadisi İqtisadi Zonasında onlarla böyük şirkət artıq fəaliyyətə başlayıb. Söhbət gələcəkdə onminlərlə insanın işlə təmin olunmasından gedir. Təkcə Cəbrayıl deyil, Zəngilan, Qubadlı, hətta Füzuli rayonlarında yaşayacaq insanlar da bu prosesə cəlb olunacaq. 4 il müddətində görülən işlərə nəzər yetirdikdə, çox böyük layihələrdən, işlərdən söhbət gedir. 30 il dağıdılmış, vəhşicəsinə talan olunmuş əraziləri qısa müddətdə bərpa etmək çətin olsa da, Azərbaycan bunu bacardı”.

**C.Məmmədov qeyd edib ki, hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə Laçında da böyük quruculuq və abadlıq işləri həyata keçirilir:** ”İşğaldan azad olunmuş ərazilərdə, o cümlədən Laçında hava limanının inşası bölgənin beynəlxalq statusunu artıracaqdır. 2025-ci ildə bu Hava Limanının istifadəyə verilməsi planlaşdırılır. Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə birləşdirir. Burada aeroportun tikilməsi olduqca əhəmiyyətlidir və ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcəyi ilə yanaşı, turizm potensialının artırılmasına da səbəb olacaq. Laçın Azərbaycanın ən gözəl bölgələrindən birinə çevrilib. Laçınlılar o gözəl torpaqlarda yeni həyata başlayıblar”.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Putin bağışlamaz, buna əmin olun!

## Sadəcə, diqqətlər hazırda Ukrayna cəbhəsindədir

**İrəvanın Roma Statutuna qoşulması Ermənistan-Rusiya münasibətlərinə birbaşa ziyan vurur. Bu sözləri Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. O bildirib ki, bir sıra rusiyalı məmurun həbsi üçün Haaqada verilmiş kvazi orderlər fonunda İrəvanın Roma Statutunda iştirakı Rusiya-Ermənistan münasibətlərinə təkcə simvolik deyil, həm də kifayət qədər praktik olaraq birbaşa ziyan vurur.**



“Geridönüşdə Paşinyanı Kreml qapılarında Putinin qəbuluna girmək üçün gözləmədə görəcəyik”

M.Zaxarova vurğulayıb ki, Ermənistanın BCM ilə əməkdaşlığı bəzi beynəlxalq hüquq normalarının möhkəmlənməsinə töhfə verə bilsə, bu, bəlkə də, başa düşülə və hətta alqışlana bilər. Lakin onun sözlərinə görə, bu ”psevdoməhkəmə”nin iki onillik iş təcrübəsi bəzən bunun əksini deyir. Qeyd edib ki, BCM heç bir münaqişənin həllinə kömək etməyib. Dəstək və əməkdaşlığa hazırlıq bəyanatı yalnız qondarma ”məhkəmə”ni yeni avantüralara həvəsləndirir. Qeyd edək ki, Ermənistan rəsmi olaraq 2024-cü ilin fevralında Beynəlxalq Cinayət Məhkəməsinə qoşulub. Ermənistan XİN başçısı Mirzoyan isə 2 dekabrda Haaqaya gedib və ilk dəfə BCM-nin İştirakçı Dövlətlərin 23-cü Assambleyasının sessiyasında iştirak edib.

**AĞ Partiya sözçüsü, siyasi şərhçi Cavanşir Abbaslı ”Şərq”ə söyləyib ki, Beynəlxalq Cinayət Məhkəməsi Roma Statutunun qərarları sadəcə kağız üzərində qalır:** ”Roma Statutuna 124 dövlət qoşulub. Təsəvvür edin ki, ABŞ, Rusiya və Çin kimi dünya gücləri bu statuta qoşulmayıblar. İndi Ermənistan kimi cırtdan ölkə qoşulub nə edəcək? Beynəlxalq Cinayət Məhkəməsi Rusiya Prezidenti Vladimir Putin haqqında həbs orderi verib. İndi günü bu gün Kreml sahibi İrəvana səfər etsə, Ermənistan hökuməti onu həbs edəcək? Ermənistanın buna cəsarəti və gücü çatmaz. İsrail Baş naziri Benyamin Netanyahu haqqında BCM həbs qərarı verib. Lakin Roma Statutunu ratifikasiya edən ən güclü dövlətlər dolayısı ilə bu qərarı icra etməyəcəklərini bildirirlər. İndi Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutu kimə lazımdır? Ermənistan ancaq belə dişsiz yerlərdə görünməklə varlığını nümayiş etdirməyə çalışır”.

**Ekspert qeyd edib ki, BCM indiyə qədər hansı münaqişənin həllində rol oynamayıb:** ”Bəlkə, Qarabağda ən ağır cinayətlər törədən erməni caniləri Köçəryan və Serj Sərkisyan haqqında həbs qərarı çıxarıblar, biz bilmirik. Əksinə, bu cəlladların rəhbərlik etdikləri Ermənistanı üzv qəbul ediblər. Digər tərəfdən, indiyə qədər bu məhkəmənin çıxardığı hansı qərarla hər hansı bir cinayətkar həbs edilib? Demək ki, qərarları kağız üzərində qalan mənasız bir birlikdir. Elə Zaxarova düz deyir, ”psevdoməhkəmədir”. Bir növ BCM Qərbin digər ölkələrə təzyiq etmə vasitələrindən biridir. Elə ciddi məhkəmədirsə, o zaman yuxarıda qeyd etdiyimiz 3 nəhəng dövlət - Rusiya, Çin və Amerika niyə qoşulmur? Amerikanın qoşulmama arqumenti suverenliyinin məhdudlaşdırılmasıdır. Bəs üzv dövlətlərin suverenliyi məhdudlaşmır?”.

**Siyasi şərhçi Ermənistanın bu addımları ilə odla oynadığını bildirib:** ”Putin barəsində həbs qərarı verən bir birliyə forpostu sayılan bir ölkənin qoşulmasını bağışlamaz. Buna əmin olun. Sadəcə, diqqətlər hazırda əsas Ukrayna cəbhəsindədir. Geridönüşdə Paşinyanı Kreml qapılarında Putinin qəbuluna girmək üçün gözləmədə görəcəyik. Düşünürəm ki, buna da az qalıb. Sadəcə, Paşinyan odla su arasında qalıb. Rusiyadan qurtula bilmir, bu, mümkünsüzdür. Qərbdən də özü qopmaq istəmir. Bir növ öz sonunu özü hazırlayır. Zaxarovanın bu açıqlamaları sadəcə verilən mesajlardan biridir. Bu mesajların hər biri vaxtı gələndə Ermənistan hökumətinə anladılacaq”.

**Şahanə Ziyad**

# İctimai Şuralar ictimai nəzarəti həyata keçirməlidir

## Bəzi qurumlarda bu məsələ formal xarakter daşıyır və heç bir ictimai nəzarət yoxdur



**”Dövlət qurumları yanında formalaşdırılmış İctimai şuralar ictimai nəzarəti həyata keçirməli və həmin qurumların fəaliyyətinin şəffaflığına töhfə verməlidirlər”. Bu sözləri ”Şərq”ə açıqlamasında millət vəkili Azər Badamov deyib.**

*Deputat bildirib ki, bəzi qurumlarda bu məsələ formal xarakter daşıyır və heç bir ictimai nəzarəti həyata keçirmir:* ”Prezident İlham Əliyev müxtəlif çıxışlarında ictimai nəzarətin vacibliyini dəfələrlə vurğulayıb. Düzgün təşkil olunmuş ictimai nəzarət vətəndaşların dövlət qurumlarının fəaliyyətindən məmnunluğunu artırmalıdır. Əgər dövlət qurumlarında formalaşdırılmış İctimai şuraların hamısı öz fəaliyyətlərini günün tələblərinə uyğun təşkil edərlərsə, bəzi narazılıqların dərhal aradan qalxmasına töhfə vermiş olarlar. Həm də müəyyən qüsurların ictimai nəzarət vasitəsilə üzə çıxarılması dövlət qurumlarının fəaliyyətinin daha səmərəli qurulmasına xidmət etmiş olar. Məhz ictimai nəzarət vasitəsilə vətəndaşlar dövlət qurumlarının fəaliyyətində iştirak etməli və inkişafına töhfə verməlidirlər”.



Xatırladaq ki, ötən gün Azərbaycan Milli QHT Forumu İctimai şuraların formalaşdırılmasında pozuntulara və üzvlükdən sui-istifadə hallarına dair bəyanat yayıb. Forumdan bildirilib ki, Azərbaycan Milli QHT Forumu bir sıra dövlət qurumları, xüsusilə yerli icra hakimiyyəti orqanları yanında İctimai şuraların formalaşdırılmasında kobud pozuntu hallarını müşahidə edir: ”Bəzi hallarda yerlərdə bir sıra qurumlar seçkili təsisat olan İctimai şuralara təyinat əsasında tərkib formalaşdırır, hətta buna dair daxili sərəncamlar imzalayır”. Azərbaycan Milli QHT Forumu bu cür halların Azərbaycan Respublikasının ”İctimai iştirakçılıq haqqında” qanununa zidd olduğunu bəyan edib: ”Apardığımız təhlillər göstərir ki, hazırda mərkəzi icra hakimiyyəti qurumları üzrə mövcud İctimai şuraların təxminən 25 faizi eyni şəxslərdən ibarətdir”. Milli QHT Forumu hesab edib ki, İctimai şuraların ”İctimai iştirakçılıq haqqında” qanunun tələblərinə uyğun fəaliyyəti təmin olunmalı, İctimai şuralar yalnız ictimai maraqlara xidmət etməli, ictimai nəzarəti təmin etməli, bu şuraların tərkibinin formalaşmasında və fəaliyyətində sui-istifadə halları aradan qaldırılmalıdır.

**İsmayıl**



# Murdarçılıqdır, xəstəlikdir

## Evdə it saxlamaq adətindən xilas olmaq lazımdır

**Bakıda itlər öz sahibini parçalayaraq öldürüb. Hadisə srağagün Xətai rayonu NZS qəsəbəsində qeydə alınıb. Orada yaşayan 70 yaşlı Ə.Y-yə saxladığı Alabay cinsli itlər hücum edib. Səs-küyə qonşular gəlsələr də, itlərin qarşısında aciz qalıblar. Nəticədə itlər sahibini parçalayaraq öldürüb.**

Hadisə yerinə polis əməkdaşları çağırılıb. Polisin müdaxiləsindən sonra itlər zərərsizləşdirilib. Qonşuların bildirdiyinə görə, Ə.Y biri erkək, biri dişi olmaqla, 2 nəhəng it saxlayıb.

Beləliklə, "itlə dostluq elə, çomağını yerə qoyma" məsəli bir daha özünü təsdiqləmiş oldu. Dəfələrlə itlər tərəfindən hücuma məruz qalma halları baş versə də, evlərində ən təhlükəli it cinslərini saxlayanlar da az deyil.

Heyvanların Müdafiə Cəmiyyətinin sədri Azər Qarayev deyir ki, 40 növ it cinsi var ki, onları əhliləşdirmək çətindir. Ən təhlükəli it cinsləri bütün iri şəhərlərdə, meqapolislərdə qadağan olunub. "Nazirlər Kabineti tərəfindən 2011-ci ildə müəyyən qaydalar təsdiq olunub. Yeni qaydalar əsasında evlərdə saxlanılan heyvanların sayı və onların saxlanılma qaydaları tənzimlənmişdi. Təəssüflər ki, həmin qaydalara bütün ölkələrdə müəyyən edilən siyahı əlavə olunmayıb. Məsələn, hansı cins itləri ağızlıqsız saxlamaq olmaz, hansı it cinslərini axtalanmamış satmaq olmaz? Təəssüflər ki, Azərbaycanda qaydalar qüvvəyə minəndən sonra bunu fikirləşiblər. Ona görə də bu siyahı hələ ki, tərtib olunmayıb". Ekspert hesab edir ki, son illər paytaxtda döyüşkən it cinslərinin sayı artır. Halbuki həmin itlər satılarkən axtalanaraq satışa çıxarılmalıdır. Döyüşkən it cinslərinin gəlir mənbəyi kimi istifadə olunması onların sayının artmasına səbəb olub. Azər Qarayevin sözlərinə görə, "brazilyero" ən təhlükəli it cinsi hesab olunur. "Mastiff", "blədhaund" və "ingilis mastifi" cinslərinin çarpazlaşdırılması nəticəsində alınmış bu cins sahibindən başqa hər kəsi potensial düşmən sayır və aqressiv olur. Onun sözlərinə görə, hətta aqressiv olanda sahibinə də xətər yetirə bilir. Vaxtilə buldoq iri vəhşi heyvana ov zamanı istifadə olunurdusa da, indi mühafizə və silahlı şəxslə mübarizə üçün yararlı sayılır. Odur ki, bu cinsin də evdə saxlanılması həyat üçün təhlükəlidir. Mütəxəssisin sözlərinə görə, "japanese tosa", "doq", "staffordşir teryeri", "bulteryer", "tosa-inu", "kanne korso", "ka-de-bo" və "pitbulteryer" cinslərini də ev heyvanı kimi əhliləşdirmək çətindir. Bu it cinsləri də istənilən an sahibinin sağlamlığına zərər vura bilər.

Mütəxəssis həmin cinslərin Qərb ölkələrində soyuq silah sayıldığını deyib. Odur ki, evdə heyvan saxlayanlar, elə edin ki, son da nə it getsin, nə də ip.

### Artıq Qərbdə də bu ənənə tənqid edilməyə başlayıb

**İlahiyyatçı Tural İrfan isə "Şərq"ə açıqlamasında deyib ki, islam dinində iki heyvan: donuz və it murdar hesab edilir:** "Şəriətimizdə it murdar sayılır. Onunla nəm halda təmasda olan hər şey, eləcə də, itin ağzının suyu dəyən hər yer murdar olur və paklanmağa ehtiyaclıdır. İt yalnız gözətçilik, müdafiə və ov kimi sahələrdə istifadə edilə bilər. Lakin bu hallarda da o, şəriət baxımından murdar olaraq qalır. Yuxarıdakı səbəblər üzündən it saxlayan şəxs bəzi qaydalara riayət etməlidir. Ən əsası isə budur ki, iti evdə saxlamaq olmaz, onu yalnız həyətdə, onun üçün ayrılmış sahədə saxlamaq olar. Bəzi şəxslər nə gözətçilik, nə müdafiə, nə də ov məqsədi olmadan, sadəcə, ekzotika xatirinə müxtəlif növ və fərqli ölçülərdə cins itlər saxlayır, onlara evin içində şərait yaradır, hətta iti öpür, onunla eyni yataqda yatırlar. Bütün bu hərəkətlər dinimiz baxımından yolverilməzdir. Peyğəmbərdən (s) nəql olunan hədisdə qeyd olunur ki, it olan evə və həyətə mələk girməz. Lakin evdən kənarda mal-qara saxlanan axırlarda, fermalarda qoruqçu kimi it saxlamağın eybi yoxdur.

Tibbi-gigiyenik tərəfdən də itin tükündə, ifrazatında bir çox qorxunc xəstəliklərin olduğu sübut olunub. Təbii ki, evdə it saxlamaq müsəlman ənənəsində yoxdur, bu, Qərb adətidir. Lakin buna baxmayaraq, Qərbin özündə də artıq bir çox təşkilatlar tərəfindən bu ənənə tənqid edilməyə başlayıb. Həyətdə isə o zaman icazəlidir ki, ona toxunulmasın, onunla təmasda olunmasın. Hətta namaz qılan insanın üstündə itin ağzının suyu, tükü olarsa, onun namazı batil hesab edilir".

**Şəymən**

# Ankara mövqeyində israrlıdır

## Türkiyə Suriyada öz milli maraqlarını təmin etmək niyyətindədir



**Hizbullah döyüşçüləri və İraqdakı iranyönlü şiə birləşmələr Suriyada müxalif qüvvələrə qarşı Əsəd rejiminin qüvvələrinə dəstək vermək məqsədilə onların sıralarına qoşulublar. Hazırda rejim qüvvələri ilə "Heyət Təhrir əş-Şam" arasında şiddətli döyüşlər davam edir. Bu münaqişə bölgədə gərginliyi daha da artırır və Suriyada vəziyyətin daha mürəkkəb xarakter almasına gətirib çıxarır.**

Qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Suriyada vəziyyətin gərginləşməsi fonunda Milli Təhlükəsizlik Şurasının iclasını keçirib.

**Politoloq İlyas Hüseynov "Sherg.az"a açıqlamasında bildirib ki, qardaş Türkiyə Suriyada öz milli maraqlarını təmin etmək niyyətindədir:**

"Prezident Ərdoğan dəfələrlə vurğulayıb ki, Türkiyənin əsas məqsədi bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasıdır. Bu çərçivədə o, hətta Bəşər Əsədlə görüş təşəbbüsü göstərmək istədiyini də bəyan edib. Lakin bu təşəbbüs bölgədəki mürəkkəb və ziddiyyətli maraqlar fonunda çox təhlükəli bir tendensiyaya işarə edir. Bölgədə müxtəlif dövlətlər və qruplaşmalar vətəndaş müharibəsindən istifadə edərək öz maraqlarını reallaşdırmağa çalışırlar.

Hər kəsə məlumdur ki, Ukraynada davam edən müharibə Rusiyanın qlobal təsir imkanlarını ciddi şəkildə zəiflədib. Bununla əlaqədar olaraq, bəzi dövlətlər Rusiyanın itirilən mövqelərini doldurmaq və öz geopolitik ambisiyalarını reallaşdırmaq üçün bölgədə fəallığını artırıblar".

**Ekspert əlavə edib ki, bölgədə fəallaşan güc mərkəzlərinin rəqabəti Suriyada sabitliyi pozur və vəziyyətin daha da gərginləşməsinə səbəb olur:**

"Əsas sual budur: bu rəqabət hansı istiqamətdə inkişaf edəcək və nə kimi nəticələrə gətirib çıxaracaq? Bunu zaman göstərəcək. Amma bir məsələ qətidir: bu mübarizədə qalib gələn tərəf yeni dünya nizamında daha çox söz sahibi olacaq. Türkiyə də öz milli maraqlarını təmin etmək və regional liderlik mövqeyini gücləndirmək üçün strateji yanaşma nümayiş etdirir ki, bu da onun bölgədəki təsir imkanlarını artırır".

**Yusif Sultanoğlu**

# Abır-həya pərdəsi götürülüb

## Qanından olan övladının canına qıyan "ata"lar var

**Ata özünü və azyaşlı qızını eyvandan atmağa cəhd edib. Bu barədə "Report"un "Telegram" kanalından məlumat yayılıb.**

Məlumata görə, dekabrın 4-ü saat 13 radələrində əvvəllər qeyri-qanuni maddələrin qanunsuz dövriyyəsində təqsirləndirilərək məhkum olunan 1991-ci il təvəllüdlü Elnur Əli oğlu Şalıyev yaşadığı evin eyvanından (10-cu mərtəbə) özünü və 2016-cı il təvəllüdlü qızını atmağa cəhd göstərib.

Polis əməkdaşları tərəfindən bu cəhdin qarşısı alınıb.



Valideynlərin çoxu uşaqla münasibətdə səbirsiz davranır, onlarla zaman keçirməyi böyük bir iş kimi görürlər

**Psixoloq Sevinc Baxışova "Şərq"ə söyləyib ki, zaman dəyişib, insanlar "müasirləşdikcə" digər milli ailə dəyərlərimiz kimi, valideyn-övlad münasibətlərində də çatlar əmələ gəlir:** "Ata-oğul, ana-qız arasında əsrlərdən bəri qorunub-saxlanan hörmət, abır-həya pərdəsi, demək olar ki, yox dərəcəsindədir. Valideynlərin çoxu uşaqla münasibətdə səbirsiz davranır, onlarla zaman keçirməyi böyük bir iş kimi görürlər. Ailədə qadın-kişi münasibətləri kimi, valideyn-övlad münasibətləri də əsas götürülür. Ancaq bu gün biz bir çox ailələrdə tərəflər arasındakı qarşılıqlı hörmətin olmadığının şahidi oluruq. Artıq Azərbaycan ailələrində valideyn-övlad münasibətləri gərginliksiz ötüşmür. Azərbaycanda övladlarının hüquqlarını pozan valideynlər cinayət məsuliyyətinə cəlb olunsalar da, bundan nəticə çıxaran valideynlər çox azdır. Əvvəl ata qızıyla aradan pərdəni götürməzdi. Nə sözü olsa, ana vasitəsilə qızına çatdırardı. Təəssüf olsun ki, bu gün qızına əl qaldıran, cinsi təcavüz edən, hətta qanından olan övladının canına qıyan "ata"lar var. Niyə? Çünki onların özlərinin ciddi psixoloji travmaları var. Uşağınıza dəyər verib sevginizi hiss etdirməniz onun sizə qucaq açmasına səbəb olacaq. O da sizi sevəcək və sizə məhəbbət göstərəcək. Verdiyiniz qərarlara hörmətlə yanaşacaq, sevərək yerinə yetirəcək. Əgər övladınıza tərbiyəni qəzəb və kin ilə öyrətməyə və ya deməyə çalışsanız, onda övladınız nəinki sizə qulaq asacaq, hətta sizdən intiqam almağa da çalışacaq".

**Fidan Həmişəyeva**



### Azərbaycanlı iş adamı "Beşiktaş"ın prezidenti ola bilər

**Bildiyiniz kimi, Hasan Arat "Beşiktaş"ın prezidentliyindən istefa verib.**

Offsideplus.az xəbər verir ki, onu azərbaycanlı iş adamı əvəz edə bilər. Söhbət Mübariz Mənsimovdan gedir. Bu məlumatı "Palmali" şirkətlər qrupunun sözçüsü Fidan Quliyeva yayıb. O, məsələ ilə bağlı rəsmi X hesabında paylaşım edib:

"Türkiyənin ən köklü və ən böyük futbol klublarından biri olan "Beşiktaş" klubunun qarşıdan gələn klub prezidenti seçkiləri həm azarkeşlər, həm də futbol dünyasında böyük maraq doğurur. "Beşiktaş" geniş azarkeş kütləsinə sahibdir. Buna görə də klub başkanlığı yarışına dair müzakirələr və ehtimallar sosial mediada sürətlə yayılır.

X-də azarkeşlərin dəstək verdiyi namizədlər arasında azərbaycanlı iş adamı, "Palmali" Şirkətlər Qrupunun prezidenti Mübariz Mənsimovun da adı çəkilir.

O da qeyd edilir ki, klub fanatları həm Mübariz Mənsimova, həm də yerli iş adamlarına hazırda maddi sıxıntı yaşayan "Beşiktaş" klubuna dəstək verilməsi ilə bağlı çağırış ediblər.

İş dünyasındakı təcrübəsi və idman yatırımları ilə məşhur olan M. Mənsimov azarkeşlər arasında xüsusi diqqət çəkir"

# İstifadə müddəti bitmiş dərmanlar təhlükəlidir

## Aptek işçisi məsuliyyətli olduğu qədər, alıcı da məsuliyyətli olmalıdır

**Yararlılıq müddəti bitmiş dərmanların satışına görə cərimələr artırılır. Bu, İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.**



Qanuna əsasən, bilə-bilə keyfiyyətsiz, normativ-texniki sənədlərin tələblərinə cavab verməyən, mənşəyi məlum olmayan, yararlılıq müddəti bitmiş "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməmiş dərman vasitələrinin satışı, satış məqsədilə saxlanması və ya idxalı, habelə saxta dərman vasitələrinin istehsalı, satışı, satış məqsədi ilə saxlanması və ya idxalı, bu əməllər az miqdarda törədildikdə inzibati xətanın bilavasitə obyekti olan dərman vasitələri müsadirə edilməklə vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

Həmin xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə inzibati xətanın bilavasitə obyekti olan dərman vasitələri müsadirə edilməklə vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər yeddi min manatdan doqquz min manatadək məbləğdə cərimə edilir.

Layihəyə əsasən, nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə inzibati xətanın bilavasitə obyekti olan dərman vasitələri müsadirə edilməklə vəzifəli şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə, hüquqi şəxslər doqquz min manatdan on bir min manatadək məbləğdə cərimə ediləcək.

**Pediatr Vaqif Qarayev "Şərq"ə açıqlamasında deyib ki, apteklərdə istifadə müddəti bitmiş dərmanlar ola bilər:** "Amma son vaxtlar istifadə müddəti bitmiş dərmanların aptekdə olması halları azalıb. Çünki insanlar aldığı dərmanın istifadə müddətinə özləri baxır. Əvvəl bu problem çox idi. Mənim də başıma gəlib. Düşünürəm ki, aptek işçisi məsuliyyətli olduğu qədər, alıcı da məsuliyyətli olmalıdır. Ümumiyyətlə, istifadə müddəti keçmiş dərmanlar təsir gücünü itirə və ya zərərli təsirlər göstərə bilər. Buna görə belə dərmanları istifadə etməyin. Digər tərəfdən, dərmanın rəsmi istifadə vaxtını dəyişmək mümkün deyil. Əgər dəyişmək olursa da, bu artıq cinayətdir ".

**Fidan Həmişəyeva**

**Elanlar**

Bakı Biznes Universitetinin 2-ci kurs tələbəsi Zeynallı İslam İlham oğlunun tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Texniki Universitetinin nəzdində Bakı texniki kollecinin 3-cü kurs tələbəsi Cəbrayılova Gülanə Namik qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Şəhanə Ziyad, Nəzrin Vüqarqızı

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 2828



## Britni Spirs də ABŞ-ni tərk etdi

### "Onlar mənimlə çox qəddar davrandılar"

**Sosial media paylaşımları ilə gündəmdə qalan məşhur müğənni Britni Spirs də ABŞ-dən ayrılan ulduzlara qoşulub.**

"Şərq" xəbər verir ki, qalmaqalları ilə tez-tez ad çıxaran məşhur müğənni dekabrın 2-də 43 yaşını qeyd edib. Ad gününü qeyd edən Spirs eyni gündə

Sam Asgaridən rəsmi şəkildə boşanıb. 7 ay əvvəl Asgari ilə yollarını ayırdığını açıqlayan Spirs indi subaydır.

Məşhur müğənni ad günündə ABŞ-ni tərk etdiyini açıqlayıb.

Müğənninin ölkəni tərk etmə səbəbinə gəlincə, "Paparassilərin üzümü ağ maska taxmış kimi göstərməsi məni çox ağrıdır. Mənə heç bənzəmir. Həmişə mənə qarşı inanılmaz qəddar olublar..." deyə bildirib.

Məşhur müğənni son aylarda sosial şəbəkə hesabında "Subayam" yazısını paylaşaraq "Yaşadıqca başqa kişi ilə olmayacam!" deyə əlavə edib.

**Turan**

## İlber Ortaylı xəstəxanaya yerləşdirilib

### Ayağındakı yara infeksiyalaşıb və fəsadlar törədib



**İştirak etdiyi canlı yayım zamanı xəstələnən professor İlber Ortaylı xəstəxanaya yerləşdirilib. Bildirilib ki, Ortaylının ayağındakı yara infeksiyalaşıb və müəyyən fəsadlar törədib.**

"Şərq" xəbər verir ki, məşhur tarixçi İlber Ortaylı bir müddət əvvəl qatıldığı televiziya proqramını xəstələndikdən sonra tərk edib.

Ortaylının xəstəxanaya yerləşdirildiyi məlum olub.

Onun son səhhəti ilə bağlı açıqlama verən jurnalist Fatih Altaylı məşhur tarixçinin şəkər xəstəliyindən qaynaqlanan bəzi xəstəlikləri olduğunu və ayağındakı yaranın infeksiyalaşaraq fəsadlar törətdiyini bildirib.

"Biz də həkimlərdən xahiş etdik ki, bir müddət onu saxlasınlar, çünki o, xəstəxanadan qaçır".

Altaylı, Ortaylının səhhətinin yaxşı olduğunu bildirib.

**Turan**

## Tuba Büyüküstün münsiflər heyətindədir



**Məşhur aktrisa Tuba Büyüküstün Səudiyyə Ərəbistanında keçirilən Qırmızı Dəniz Film Festivalının münsiflər heyətinə üzv olub.**

"Şərq" xəbər verir ki, Hollivud ulduzlarının qonaq olduğu festivalda türk qadınlarını Büyüküstün təmsil edir.

Usta rejissor Spike Linin münsiflər heyətinin sədri olduğu festival başlayıb.

5-14 dekabr tarixlərində Səudiyyə Ərəbistanında keçirilən festival rejissor Kərim Şenavinin "Daye ailəsinin nağılı" filmi ilə başlayıb.

Münsiflər heyətində Tuba Büyüküstündən başqa, britaniyalı aktrisa Minnie Driver və misirli rejissor Əbu Bəkr Şovki də var.

**Turan**

## Alınacaq dərs, meşəyə aparmayın!

### İtmiş pişik 2 ay 1450 kilometr yol getdikdən sonra evə qayıdıb



**Reyn Beau adlı balaca boz pişik (onun adı "Göy qurşağı" kimi tələffüz olunur) Yellovstone Milli Parkından Kaliforniyadakı evinə qədər "planlaşdırılmamış" 1448 kilometrlik səyahətini başa vurub.**

Qorxmaz pişik ailəsi ilə birlikdə ziyarət etdiyi ABŞ-nin ən qədim milli parkında itib. Reyn Beau iyunun 4-də sahibləri Benni və Syuzan Anguina və başqa bir pişiklə Yelloustoundakı parka gəlib və gün ərzində meşəyə qaçıb. Sahibləri onu dörd gün axtarsalar da, pişiyin sevimli şirniyyatlarından və oyuncaqlarından istifadə etsələr də, nəticəsi olmayıb. Cütlük pişiyini tapa bilməyəndə Kaliforniyanın Salinas şəhərindəki evlərinə qayıtmalı olublar.

Ancaq pişiklərindəki mikroçip sayəsində Anguina cütlüyü itəndən 60 gün sonra pişiyi tapıblar. Kaliforniya ştatının Roseville şəhərində ev heyvanlarını izləmə xidməti cütlüyə pişiklərinin tapıldığı barədə məlumat verib. Məlumata görə, pişiyi avqustun 3-də küçədə gəzən qadın tapıb. Pişiyin tapıldığı zaman onun təxminən 2,7 kiloqram arıqladığı məlum olub. Reyn Beaunun Yellovstonedən Rosevilleyə necə getdiyi məlum deyil. Lakin sahibləri onun bunu tək etmədiyini düşünürlər. Susanne Anguiano deyit: "Mən onun bu səyahəti əsasən təkbaşına etdiyinə həqiqətən inanmıram. Pəncələri həqiqətən döyülmüşdü. O, bədən çəkisinin 40 faizini itirmişdi, qidalanma səbəbiylə protein səviyyəsi həqiqətən aşağı idi". Anguiano cütlüyü hadisədən sonra daha diqqətli olmağa başladıqlarını bildirir. Ailə hər iki pişiyinə "AirTag" quraşdırdı, həmçinin 2 ay evdən uzaqda olan Rayne Beauya əlavə GPS izləmə cihazı yerləşdirilib.

**Turan**




# Avropa ölür

### Ekspertlər "Qiyamət günü" xəbərdarlığı edib



**Ötən il Avropa İttifaqında doğum faizi ən aşağı səviyyəyə çatıb. Bu vəziyyət "əhalinin az olması" qorxusunu artırır. "Şərq" NTV.com.tr"tə istinadən xəbər verir ki, mütəxəssislər aşağı doğum göstəricilərinin beynəlxalq güc balansını kəskin dəyişə biləcəyi fikrindədir.**

Belə davam edərsə, ölkələr immiqrasiyadan - əcnəbi vətəndaşların köçündən asılı vəziyyətə düşəcək. Nəticədə güclü iqtisadiyyatlar, işçi qüvvəsi, vergi ödəyicisi, hətta yaşlılara qulluq etməyə gənc işçi tapmayacaq. İşləyən əhalinin yaş kateqoriyası 50-dən yuxarı olacaq. Statistik məlumatlara görə, AB-nin 27 ölkəsində 2023-cü ildə cəmi 3,67 milyon körpə doğulub. Bu rəqəm 2022-ci illə müqayisədə 5,5 faiz azalma deməkdir ki, bu da qeydlərin tutulmağa başladığı 1961-ci ildən bəri ən böyük azalmadır. Ən çox zərər çəkən ölkələrdə ikirəqəmli faizlə azalma, Rumıniyada isə 13,9 faiz azalma qeydə alınıb. "Daily Mail" xəbər verir ki, aşağı düşən doğum faizləri ekspertlərin "əhali süqutu" ilə bağlı "qiyamət" xəbərdarlığına səbəb olub. Rumıniyadan sonra doğumun əvvəlki ilə nisbətən ən çox azaldığı ölkələr Polşa (10,7 faiz), Çexiya (10 faiz), Latviya (9,2 faiz) və Slovakiya (7,7 faiz) olub. Fransa və Almaniya kimi zəngin Aİ ölkələrində də əhəmiyyətli azalmalar olub. Yalnız beş ölkədə ümumi doğuş artımı müşahidə olunub: Malta (3,6 faiz), Portuqaliya (2,4 faiz), Bolqarıstan (1,1 faiz), Kipr (1 faiz) və İrlandiyada (0,5 faiz). Əhalinin az olması ehtimalı İlon Maskın da sevimli mövzularından biridir. "Tesla" sahibi 2017-ci ildə demişdi ki, Yer kürəsindəki insanların sayı "çöküşə doğru sürətlənir, lakin az adam bunu fərq edir və ya əhəmiyyət verir". 2021-ci ildə Mask, insanlar daha çox uşaq sahibi olmazsa, sivilizasiyanın çökəcəyini bildirib. Bəzi ölkələrin əhalisinin iki dəfə azalacağı halda, digərlərinin, xüsusən də Afrikanın 22-ci əsrə qədər 8 dəfə artacağı proqnozlaşdırılır. Bu isə Avropanın miqrantlara getdikcə daha çox ehtiyac duyacağı anlamına gəlir. Mütəxəssislər bu tendensiyanın qismən qadınların öz təhsillərinə və karyeralarına diqqət yetirmələri və cütlüklərin uşaq sahibi olmaq üçün daha gec yaşa qədər gözləmələri ilə bağlı olduğunu düşünürlər. Bəziləri iddia edir ki, ölkələrin kövrək iqtisadiyyatı və yaşayış böhranı insanların uşaq sahibi olmasına mane olur. Digərləri ətraf mühitə istinad edir, övladlarının iqlim dəyişikliyi səbəbindən qaranlıq gələcəyindən qorxurlar. Bir çox insanlar 30 yaşlarının ortalarına qədər gözləyirlər ki, bu da bioloji amillərə görə uşaq sahibi olmaqda daha az insanın uğur qazanmasına səbəb ola bilər. "Mills Telegraph"ın yazdığına görə, bəziləri uşaq sahibi olmağa bioloji cəhətdən daha az uyğun olduqları zaman uşaq sahibi olmaq istəyir. İnsanlar vaxtlarının tükəndiyini fərq etmirlər. Doğum nisbətlərinin azalması dünyanın ən böyük iqtisadiyyatlarının əhalinin yaşı artdıqca immiqrasiyadan daha çox asılı olacaqları deməkdir. Doğum nisbətlərinin hər hansı bir azalması əhalinin demoqrafik strukturunda kəskin dəyişikliyə, yaşlı insanların gənclərdən daha çox olmasıyla nəticələnəcək. Bəzi ölkələr hətta doğum nisbətini artırmaq üçün uşaq sahibi olmaq üçün yeni valideynlərə pul ödəməyə başlayıblar. Lakin dünya əhalisinin tezliklə azalması gözlənilmir. Hazırda dünyada təxminən 8 milyard insan yaşayır və bu rəqəmin 2100 civarında zirvəyə çatacağı gözlənilir. Bununla belə, etibarlı tədqiqatlar göstərir ki, dünyada insanların sayı 2070-ci ildə azalmağa başlaya bilər.

**Məlahət**



# Bu, gələcəyi dəyişdirəcək

### Alimlər "dönüş nöqtəsi" elan etdilər

**İsveçdə Karolinska İnstitutu və Kolumbiya Universiteti, baş müstəntiq Konstantinos Ampatzisin rəhbərliyi ilə ürəyin "mini beyinə", yəni ürək döyüntüsünü idarə edən öz sinir sisteminə malik olduğunu göstərən bir araşdırma aparıb. Kardiologiya mütəxəssisi, professor Okay Abacı, "Bu kəşf ürək sağlamlığı sahəsində əhəmiyyətli bir dönüş nöqtəsi ola bilər" deyib.**

"Şərq" xəbər verir ki, uzun müddətdir ki, ürəyin yalnız beyindən gələn siqnalları ötürən avtonom sinir sistemi tərəfindən idarə edildiyi düşünülür. Məlum idi ki, ürəyin neyron şəbəkəsi, ürək divarının səthi təbəqələrinə yerləşdirilib, beyindən gələn siqnalları ötürən sadə bir quruluşdur. Ancaq son araşdırmalar bunun daha inkişaf etmiş bir funksiyaya sahib olduğunu ortaya qoydu.

Konstantinos Ampatzis deyib:

"Bu "kiçik beyin" beynin hərəkət və tənəffüs kimi ritmik funksiyaları necə tənzimlədiyi kimi, ürək döyüntüsünün saxlanmasında və idarə olunmasında mühüm rola malikdir. Ürəyin daxilindəki sinir sisteminin nə qədər mürəkkəb olduğunu görəndə təəccübləndik.

Bu sistemin daha yaxşı başa düşülməsi ürək xəstəlikləri ilə bağlı yeni perspektivlərə səbəb olacaq və aritmiya kimi xəstəliklər üçün yeni müalicə üsullarını inkişaf etdirməyə kömək edəcək.

Tədqiqat insanın ürək döyüntüsü və ümumi ürək funksiyası ilə güclü oxşarlıqlar nümayiş etdirən bir heyvan modeli olan zebra balığı üzərində aparılıb. Təkhüceyrəli RNT ardıcıllığı, anatomik tədqiqatlar və elektrofizioloji üsullar kimi metodların kombinasiyasından istifadə edərək tədqiqatçılar ürəkdəki neyronların tərkibini, təşkilini və funksiyasının xəritəsini tərtib ediblər.

Xəstəxana Tibb Fakültəsi Kardiologiya Fundamental elm sahəsi müəllimi Okay Abacı araşdırmanın nəticələri ilə bağlı bunları deyib: "Bu kəşf ürək xəstəlikləri və ritm pozğunluqları üçün yeni müalicə üsullarına yol aça bilər. İndiyə qədər ürək beyin tərəfindən göndərilən siqnallarla idarə olunan bir orqan hesab olunurdu. Ancaq yeni araşdırmalar ürəyin ritmini tənzimləyən mürəkkəb sinir quruluşuna malik olduğunu və bu strukturun beynin idarəsindən asılı olmayaraq işləyə biləcəyini göstərdi. Bu kəşf ürək xəstəlikləri və ritm pozğunluqları kimi sağlamlıq problemlərinin müalicəsində inqilabi inkişaf yarada bilər.

Ürəyin sinir sistemi ürəyin döyüntüsünü tənzimləyən və onun harmonik daralmasını təmin edən elektrik şəbəkəsindən ibarətdir. Bu şəbəkəyə sinus düyünü, atrioventrikulyar düyün (AV nodu) və His dəstəsi daxildir. Ürək ritminə nəzarət edən bu neyron şəbəkə ürəyin fəaliyyətini tənzimləməklə yanaşı, bədənin digər orqanları ilə də ahəngdar işləməsini təmin edir.

Abacı, "Zebra balığı üzərində aparılan araşdırmalarda insan ürəyi ilə oxşar nəticələr əldə edilib. Bu, insanın ürək xəstəlikləri haqqında daha dərin məlumat əldə etməyə imkan verəcək inkişafdır. "Zebra balığı kimi model orqanizmlər ürək xəstəliklərinin müalicəsində mühüm vasitələr təklif edir" deyib.

**Turan**

## Yuxusuzluq, daimi yorğunluq...

### Alimlər səbəbini tapıb

**İnsanların böyük əksəriyyəti, xüsusən də gənclər, yorğunluqdan daha çox şikayət edir. Bunun səbəbi nədir? "Şərq" "tr.mashable.com"a istinadən bildirir ki, alimlər davamlı yorğunluğa səbəb olan amilləri sadalayıb. Stanford Universitetinin həkimi Şennon Sullivan yorğunluğun səbəblərini tapmaq üçün dedektivliyə ehtiyac olduğunu deyib:**

"Yuxu rejimi tənzimlənmirsə, buna ümumi sağlamlıq şərtləri və ya dərmanlar səbəb ola bilər. Yorğunluğun mənbəyini müəyyənləşdirmək və müalicə etmək yolları var və bu üsullar tez-tez özünüzü daha yaxşı hiss etməyə kömək edə bilər". Yuxu pozğunluqları çox yayğındır. Gün ərzində yuxuya getdiyinizi hiss edə bilərsiniz və buna görə də gündüz yuxululuğu ilə mübarizə aparırsınızsa, həkimə müraciət etməlisiniz. Dünyada böyüklərin təxminən 30 faizi yuxuya getməkdə və ya yuxulamaqda çətinlik çəkir, bu da onları narahat edir. Yuxusuzluq, məsələn, stress və ya reaktiv gecikmə nəticəsində yaranan qısamüddətli problem ola bilər. Ancaq bu simptomlar həftədə ən azı üç dəfə üç ay və ya daha uzun müddət ərzində baş verərsə, xroniki yuxusuzluqdur. Müalicə yuxusuzluğun səbəbindən asılı olaraq dəyişir, lakin bir çox hallarda koqnitiv davranışlı terapiya dərmanlardan daha təsirli olacaqdır. Digər ümumi yuxu pozğunluğu, yuxu zamanı boğaz əzələlərinin çökməsi, hava axınının qarşısının alınması və



vaxtaşırı nəfəs almağınıza səbəb olan obstruktiv yuxu apnesidir. Bəzi insanlar heç bir əlamət göstərməsə də, digərləri gün ərzində xoruldaya, nəfəs darlığı ilə oyana və ya yuxulu ola bilər. Müalicə olunmayan ağır vəziyyətlər ürək xəstəliyinə, insult və diabetə səbəb ola bilər. Bu pozğunluq ayaqlarda narahatlıq hissi və ayaqları daim hərəkət etdirmək istəyi ilə özünü göstərən bir vəziyyətdir. Simptomlar tez-tez gecələr pisləşir və istirahət zamanı başlaya bilər. Bu, yuxuya getməyi çətinləşdirir. Ayaqlarınızı masaj etmək və spirt və kofein istehlakını azaltmaq və ya tamamilə aradan qaldırmaq simptomları azaltmağa kömək edə bilər. Həmçinin dəmir çatışmazlığının müalicəsi də kömək edə bilər. Həkim qeyd edib ki, yorğunluq və aşağı səviyyəli enerji bir çox başqa şeylərdən qaynaqlana bilər. Ona görə də bütün əsas amilləri analiz etmək lazımdır. Hormonal balanssızlıq, tiroid vəzi kifayət qədər tiroid hormonu istehsal etmədikdə baş verən hipotiroidizmdir. Müayinədən keçmək, xəstəliyi müalicə etmək və nəzarət etmək, müntəzəm qan testləri ilə hormon durumunu yoxlamaq lazımdır. Vitamin və ya mineral çatışmazlıqları, qadınlarda menstrual dövr, dəmir çatışmazlığı da yorğunluğa səbəb ola bilər. Həmçinin qəbul edilən müxtəlif dərmanlar - antidepresanlar, benzodiazepinlər və antihistaminlər də yuxu pozğunluğu yarada bilir.

**Məlahət**